HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 35 (929) ■ 19 sentyabr 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Türkiyə-Azərbaycan qardaşlığı sarsılmazdır

**Sentyabrın 15-də paytaxtımızın «Azadlıq» meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib. Paradda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və digər rəsmi şəxslər, ictimaiyyət nümayəndələri iştirak ediblər.**



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış edib. Dövlətimizin başçısı bildirib ki, bu günlərdə 100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi: «İlk dəfə olaraq, müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz fəxr edirik ki, bu respublikanı yaradan Azərbaycan xalqı olmuşdur. Ancaq gənc müstəqil Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Azərbaycan hökuməti öz ərazisinə tam nəzarət edə bilmirdi. Bakı şəhəri və bir neçə başqa şəhər işğal altında idi. Azərbaycan hökuməti Gəncə şəhərində yerləşmiş və orada fəaliyyət göstərmişdi. Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır».



Prezident İlham Əliyev bəyan edib ki, bu gün tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür: «Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir. Yüz il bundan əvvəl Nuru paşanın Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğalçılardan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq, şücaət göstərmişlər. Onu da qeyd etməliyəm ki, bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlmiş və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıtmışdır. Nuru paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır».

Sonra çıxış üçün tribunaya qalxan Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrini salamlayaraq onların fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazdıqlarını bildirib: «Biz dünyanın 34 ölkəsində 78 şəhid məzarlığı olan bir ölkəyik. Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib. Azərbaycan Türkiyədən sonra ən çox şəhidimizin olduğu ölkədir. Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz, eyni zamanda, ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir».

R.T.Ərdoğan böyük şair, mərhum Bəxtiyar Vahabzadənin Azərbaycan və Türkiyənin qardaşlığına həsr etdiyi şeri səsləndirib və bildirib ki, Türkiyə və Azərbaycanın birliyi bu misralarda təcəssüm edən qardaşlığın ən gözəl nümunəsidir. Qeyd edib ki, biz bu gün yalnız Qafqaz İslam Ordusunun və azərbaycanlı qardaşlarımızın dillərdə dastan olan mübarizəsi ilə Bakının işğaldan azad olunmasının 100-cü ildönümünü qeyd etmirik, eyni zamanda, əziz şəhidlərimizin bizə əmanəti olan «Bir millət, iki dövlət» deyə rəmzləşdirdiyimiz qan qardaşlığımızı da dərk edirik: «1918-ci il sentyabrın 15-də hazırda yaşadığımız ərazilərdə baş verən müharibə, əsla, adi bir hadisə deyil. Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik. Nuru paşanın və Qafqaz İslam Ordusunun Bakıya və Gəncəyə gəlişi azərbaycanlı qardaşlarımız arasında belə böyük həyəcana, belə böyük bir ümidə səbəb olub. Bu gün 1918-ci il sentyabrın 15-də qazanılmış böyük qələbəni kiçik, əhəmiyyətsiz göstərməyə çalışan bəzi qüvvələrin olduğunu bilirik. Buna təşəbbüs göstərənlər o dövrdə aldıqları ağır məğlubiyyətin rüsvayçılığını hələ də unuda bilməyənlərdir».

Türkiyə Prezidenti bildirib ki, Azərbaycanın 1991-ci ildə müstəqilliyini yenidən bərpa etməsindən sonra onu ilk tanıyan ölkənin Türkiyə Respublikası olması heç də təsadüfi deyil: «Bu, qan qardaşlığımızın təbii nəticəsidir. Türkiyə olaraq müstəqilliyinin ilk dövrlərindən başlayaraq Azərbaycana əlimizdən gələn hər cür dəstəyi göstərdik və göstərməyə davam edəcəyik. Bu gün Türkiyə Azərbaycanın sadəcə siyasi və hərbi deyil, eyni zamanda, ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır. Müstəqilliyini bərpa etdikdən bəri Türkiyədə təhsil almış azərbaycanlıların sayı 125 mindən çoxdur. Hazırda 15 mindən çox azərbaycanlı tələbə Türkiyə universitetlərində təhsil alır. Əsgərlərimiz birgə təlimlər keçir, Əfqanıstan kimi dünyanın müxtəlif bölgələrində birlikdə fəaliyyət göstərirlər».

«Azərbaycanın sevinci bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir», - deyən qardaş ölkənin dövlət başçısı xalqımızın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsini öz ölkəsi üçün də eyni dərəcədə ağrılı problem kimi dəyərləndirib. Bildirib ki, Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəkdir: «İllərdir vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Türkiyənin bu məsələdə mövqeyi məlumdur, aydındır, dəqiqdir. Əvvəla, bu məsələdə addım atmalı olan tərəf işğalçılardır, bir milyon qardaşımızın qəlbini doğma vətən həsrəti ilə yandıranlardır. Əlbəttə, biz bütün qonşularımızla yaxşı əlaqələr qurmağı və davam etdirməyi arzu edirik. Amma Dağlıq Qarabağ probleminin həlli Ermənistanla əlaqələrimizin bərpasının ən vacib şərtidir. Bunu hamı bilməlidir. Bundan 26 il əvvəl Xocalıda, Dağlıq Qarabağda törədilmiş qətliamlara görə məsuliyyət daşıyanların, qatilləri qəhrəman elan edənlərin bizə verə biləcəyi heç bir tarixi dərs yoxdur. Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyin-çiyinə bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır. Bir əsr əvvəl bu torpaqlarda minlərlə şəhidimizin qanı ilə yazılan dastanın unudulmasına və unutdurulmasına qətiyyən imkan verməyəcəyik».

Sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi başlanıb. Qarşıda Azərbaycan Respublikasının dövlət bayrağı, onun ardınca isə Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları gətirilib. 2016-cı ilin aprelində Füzuli, Cəbrayıl, Ağdərə, Tərtər rayonlarında və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəklikləri azad edərək min hektarlarla ərazinin nəzarətə götürülməsində xüsusilə fərqlənən hərbi hissələrin döyüş bayraqları da parada gətirilib.

Cəmşid Naxçıvanski adına hərbi liseyin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarından, Bakı Qarnizonu zabitlərindən ibarət parad heyəti tribunanın önündən keçiblər.

Sonra meydana Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən parad heyəti, Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları daxil olublar.

Bakı Qarnizonunun birlik, birləşmə və hərbi hissələrinin xüsusi texnikaları və silah sistemlərinin keçidi olub. Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Osmanlı Türkiyəsi və Azərbaycanın milli hərbi qüvvələri əsasında təşkil edilmiş Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində, hər iki ölkənin dövlət bayraqları altında tribuna önündən keçiblər. Hərbi Hava Qüvvələrinin uçuş nümayişini «Mi-17» tipli iki helikopter açıb. Birinci helikopter Azərbaycanın dövlət bayrağını, ikinci helikopter isə Türkiyənin dövlət bayrağını aparıb. «Su-25» hücum təyyarələri Bakı səmasında Azərbaycan Respublikasının dövlət bayrağının təsvirini yaradıblar. «MiQ-29» təyyarəsi yüksək pilotaj fiqurları nümayiş etdirib. Sonra Türkiyə Silahlı Qüvvələrinin «Türk Ulduzları»nın uçuşları başlayıb.Türkiyəli şahinlər Azadlıq meydanı üzərində yüksək məharətlərini nümayiş etdirib, Azərbaycanın və Türkiyənin dostluğunun, qardaşlığının və qəlb birliyinin rəmzi olan ürək şəkli çəkiblər.

Parad başa çatdıqdan sonra Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Bakı şəhərinə gəzintiyə çıxıblar. Gəzinti zamanı dövlət başçıları, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva paytaxt sakinləri ilə görüşüb söhbət ediblər, xatirə şəkilləri çəkdiriblər.

# Türkiyə Prezidenti Azərbaycanda səfərdə olub

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Azərbaycana işgüzar səfər edib. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin dövlət başçısını qarşılayıb. Hər iki ölkənin dövlət himnləri səsləndirilib, prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.**

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşü olub. Görüşdə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, ölkələrimizin birgə həyata keçirdiyi qlobal layihələrin əhəmiyyəti və bu səfərin əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi qeyd edilib. Söhbət zamanı Bakının işğaldan azad olunmasının 100 illiyi münasibətilə paytaxtda keçirilən parad əlaqələrimizin tarixində mühüm hadisə kimi qiymətləndirilib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Həmin gün Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Fəxri xiyabana gələrək ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər, məzarı önünə əklillər qoyublar. Sonra hər iki dövlət başçısı Şəhidlər xiyabanını ziyarət ediblər. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış «Əbədi məşəl» abidəsinin önünə əklillər qoyublar. Dövlət başçıları, həmçinin, Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklillər qoyublar.

# Rəsmi xronika

- Sentyabrın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər. Hərbi marşın sədaları altında döyüş bayrağı sıra meydanına gətirildikdən sonra Vətən uğrunda həlak olan hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib. Daha sonra gənc əsgərlər hərbi and içiblər. Qeyd edək ki, mərasimdə and içən gənc əsgərlər sırasında Azərbaycan Prezidentinin oğlu, burada hərbi xidmət keçən Heydər Əliyev də var. Şəxsi heyəti təbrik edən Prezident, Ali Baş Komandan İlham Əliyev onlara uğurlar arzulayıb. Hərbi hissənin şəxsi heyəti təntənəli marşla tribunanın qarşısından keçib. Sonda andiçmə mərasimində iştirak edən valideynlər Prezident İlham Əliyevlə görüşüb söhbət ediblər.
- Prezident İlham Əliyev sentyabrın 14-də TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyaneni qəbul edib. Görüş zamanı TOTAL şirkəti ilə SOCAR arasında neft-qaz sahəsində əməkdaşlığın perspektivləri, «Abşeron» yatağının birgə işlənilməsi çərçivəsində hazırkı işlərin gedişi, neft-qaz strukturunda digər yataqların birgə işlənilməsi imkanları ilə bağlı məsələlər müzakirə edilib.
- Dövlətimizin başçısı sentyabrın 13-də İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan ilə İsrail arasında iqtisadi, hərbi, mədəniyyət, turizm sahələrində əlaqələrin inkişafından məmnunluq bildirilib, bu səfərin əməkdaşlıq işinə öz töhfəsini verəcəyinə ümidvarlıq ifadə olunub. Söhbət zamanı Azərbaycanda digər icmalarla yanaşı, yəhudi icmasının nümayəndələrinin də dinclik və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığı qeyd olunub, onların ölkəmizin ictimai həyatında fəal rol oynadıqları bildirilib.

Vergilər naziri Cənubi Koreyanın səfiri ilə görüşüb — səh. 2

Vergilər Nazirliyinin əməkdaşları Koreyada təlim kurslarında olublar — səh. 3

Xidmət mərkəzləri - vergi ödəyicilərinin üz tutduğu doğma məkan — səh. 4

Hər bir vətəndaş dövlətin verdiyi hüquqlardan yararlanmaq haqqına sahibdir — səh. 5

# Təhsilin inkişafı dövlətin diqqət mərkəzindədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində təhsilin inkişafına xüsusi diqqət yetirilir. Son illərdə çoxlu sayda yeni məktəb binasının inşası, mövcud təhsil müəssisələrinin isə müasir səviyyədə yenidən qurulması geniş vüsət alıb. Bu layihələr paytaxtımızla yanaşı, respublikanın ən ucqar kənd və qəsəbələrini də əhatə edir. Bununla yanaşı, Azərbaycanda təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenilənməsi istiqamətində də mühüm işlər görülür. Bütün bunlar bir daha sübut edir ki, insan kapitalının formalaşmasında müstəsna rola malik olan təhsil sahəsinin inkişafına ölkəmizdə ən yüksək səviyyədə diqqət yetirilir. Bu isə gənc nəslin bilikli, savadlı və intellektual səviyyədə yetişməsində mühüm rol oynayır.

Yeni tədris ilinin başlanması ilə əlaqədar Prezident İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsindəki 295 nömrəli, həmin rayonun Maştağa qəsəbəsində yerləşən Cəfər Cabbarlı adına 187 nömrəli və Zabrat qəsəbəsindəki 192 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Sentyabrın 14-də Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılış mərasimi olub. Tədbirdə iştirak edən Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsib. Qeyd olunub ki, 25 min nəfərdən çox əhalisi olan Savalan yaşayış massivində məktəb olmadığından şagirdlər təhsillərini rayonun Maştağa, Zabrat və digər qəsəbələrindəki təhsil ocaqlarında alırdılar. Üçmərtəbəli yeni məktəb binasının istifadəyə verilməsi bütün bu problemlərin aradan qaldırılmasına imkan verib.

Məktəbdə yaradılan şərait və ətraf ərazi ilə tanışlıqdan sonra dövlətimizin başçısı yeni təhsil ocağının bir qrup müəllim və şagirdi ilə görüşüb. Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda təhsilə çox böyük diqqət yetirilir: «Bu il bütövlükdə Bakı şəhərində 19 məktəb tikilib və əsaslı təmir olunub. Demək olar ki, Bakı şəhərinin məktəblərinin əksəriyyəti artıq yaxşı vəziyyətdədir. Hələ də təmirə ehtiyacı olan məktəblər var və biz onları gələn illərdə təmir edəcəyik. Ölkəmizdə isə bu il 200-dən çox məktəb tikilib və təmir olunub. Ucqar kəndlərdə, kiçik kəndlərdə 137 modul tipli məktəb tikilib. O kəndlərdə ümumiyyətlə məktəblər qəzalı vəziyyətdə idi. Qəzalı məktəblərin sökülməsi və onların yerində yeni məktəblərin tikintisi proqramı da ümid edirəm ki, gələn il başa çatacaq».

Dövlətimizin başçısı məktəbin kollektivini bir daha təbrik edib, uğurlar arzulayıb.

# Ölkə Prezidentinin bölgələrə səfəri

Prezident İlham Əliyev sentyabrın 18-də Masallı rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Masallı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Səfər çərçivəsində Prezident İlham Əliyev Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun və Masallı Sənaye Məhəlləsinin açılışında iştirak edib. Sənaye məhəlləsinin istehsal korpusları və burada fəaliyyət göstərən müəssisələrlə tanış olan dövlətimizin başçısı daha sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

«Masallı nemətləri» Məhdud Məsuliyyətli Cəmiyyətin çəltik emalı müəssisəsinin açılışında iştirak edən dövlətimizin başçısına bildirilib ki, ümumi ərazisi 1 hektar, tikinti sahəsi isə 600 kvadratmetr olan müəssisənin aylıq emal gücü 300 ton, düyüqurutma gücü isə 900 tondur. Qeyd olunub ki, cari ildə rayon ərazisində ümumilikdə 301 hektar çəltik sahəsi mövcuddur, 25 hektar sahə isə Koreyadan gətirilmiş «Daydon» markalı texnikalar vasitəsilə ən müasir texnologiya əsasında əkilib.

Sonra Prezident İlham Əliyev Masallı rayonunda əsaslı şəkildə yenidən qurulmuş Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun açılışını edib.

Həmin gün dövlətimizin başçısı Biləsuvar rayonuna gəlib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edən Prezident İlham Əliyev rayonun Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun açılışında iştirak edib.

Dövlətimizin başçısı səfər çərçivəsində Biləsuvarda Bayraq Muzeyinin açılışında iştirak edib. Məlumat verilib ki, ümumi ərazisi 400 kvadratmetr olan muzey binası ikimərtəbəli olmaqla sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Muzeydə Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manikenlər, xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar sərgilənir. Bundan əlavə, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş konstitusiyalar, gerblər, bayraqlar, Silahlı Qüvvələrin geyim formaları, ümummilli lider Heydər Əliyevin andiçmə mərasimindən fotoşəkillər və dövlət rəmzləri haqqında kəlamları, Prezident İlham Əliyevin Bayraq Meydanının açılışı mərasimində çəkilmiş fotoşəkilləri, poçt markaları, orden və medallar muzeyin ekspozisiyasına daxildir.

Biləsuvara səfər çərçivəsində Prezident İlham Əliyev Gənclər Evinin açılışında da iştirak edib.

# Vergilər naziri Cənubi Koreyanın səfiri ilə görüşüb

Sentyabrın 12-də vergilər naziri Mikayıl Cabbarov Cənubi Koreyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyu ilə görüşüb.

Görüşdə ölkələrimiz arasındakı iqtisadi əlaqələr, ölkələrarası ticarətin genişlənməsi və investisiyaların yatırılması, bu sahədə əməkdaşlığın genişləndirilməsi müzakirə edilib, hər iki ölkənin iqtisadi tərəfdaş kimi qarşılıqlı maraq doğurduğu vurğulanıb. Tərəflər Azərbaycanda iqtisadi sahədə aparılan islahatlar, Koreya şirkətlərinin Azərbaycandakı fəaliyyəti, həmçinin vergi sahəsində aparılan son islahatlar barədə fikir mübadiləsi aparıblar. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.



# Vergi orqanlarına daxil olmuş müraciətlər diqqətlə araşdırılır

Cari ilin avqust ayı ərzində vergi orqanlarına daxil olmuş 7.926 müraciətin 83,8%-i ərizə, 16,1%-i şikayət, 0,2%-i isə təklif xarakterli olmuşdur. Ümumilikdə ötən ilin müvafiq dövrü ilə müqayisədə 926 müraciət və ya faiz nisbəti ilə 10,5% azalma qeydə alınmışdır.

Daxil olmuş müraciətlərin 38,6%-i müxtəlif arayışların alınması, 33,1%-i kameral vergi yoxlamaları, 8%-i vergi borcları, 3,7%-i vergidən yayınma, qanunsuz sahibkarlıq fəaliyyəti, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 2,1%-i ƏDV, 1,7%-i vergi qanunvericiliyinin tətbiqi, 1,3%-i səyyar vergi yoxlamaları, digər müraciətlər vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), operativ vergi nəzarəti tədbirləri, korrupsiya hüquqpozmaları və s. məsələlərlə bağlı olmuşdur. Baxılmış müraciətlərdən 75,9%-i tam, 0,2%-i qismən müsbət həll olunmuş, 20,7%-i barədə müvafiq izahatlar verilmiş, 0,9%-i əsassız sayılmış, 1,6%-i baxılmamış saxlanılmış, 0,7%-i aidiyyəti üzrə göndərilmiş, 0,1%-i ilə bağlı icraata xitam verilmişdir. Müraciətlərin 22,2 %-i icradadır.

Müsbət həll olunmuş müraciətlərin 58,6%-i müxtəlif arayışların alınması, 18,6%-i kameral vergi yoxlamaları, vergi borcları, qalanları isə digər məsələlərlə bağlı olmuşdur.

2018-ci ilin avqust ayı ərzində vergi orqanlarının aidiyyəti struktur bölmələrinin və vahidlərinin rəhbərləri və digər vəzifəli şəxsləri tərəfindən ümumilikdə 292 vətəndaş qəbul edilmişdir. Qəbul zamanı hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılmış, onların qanuni tələblərinin müsbət həll olunması üçün lazımi tədbirlər görülmüş, həlli imkan xaricində olan məsələlərlə bağlı qanunamüvafiq izahatlar verilmişdir.

# İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanla görüş

Vergilər naziri, Azərbaycan-İsrail Hökumətlərarası Birgə Komissiyasının həmsədri Mikayıl Cabbarov Bakıda səfərdə olan İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə iki ölkə arasındakı yüksək səviyyəli münasibətlərdən məmnunluq ifadə edilib, hökumətlərarası komissiyanın fəaliyyəti, Azərbaycan ilə İsrail arasında iqtisadi və digər sahələrdə əlaqələrin inkişafı məsələləri müzakirə edilib. Tərəflər qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinin mühümlüyünü vurğulayıb, ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdirilməsi istiqamətində fəaliyyətlərin davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# E-xidmətlərin göstərilməsində idarəetmə optimallaşdırılacaq

«Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında Prezident İlham Əliyevin imzaladığı fərmanda bildirilir ki, dövlət informasiya ehtiyatları və sistemlərində müvafiq sahə üzrə toplanan məlumatların sistemliyini təmin etmək, dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsinin səmərəliliyini artırmaq və əhaliyə elektron xidmətlərin göstərilməsində idarəetməni optimallaşdırmaq məqsədilə Elektron Hökumət İnformasiya Sisteminin (EHİS) ilkin olaraq aşağıdakı altsistemləri yaradılacaq:

- kommunal sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanıldığı və emal edildiyi informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, monitorinqlərin və analitik təhlillərin aparılmasını, proqnozların hazırlanmasını və qeyd edilən sahədə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsini təmin edən – Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi;
- sosial xidmətlər sahəsində idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanıldığı və emal edildiyi informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, monitorinqlərin və analitik təhlillərin aparılmasını, proqnozların hazırlanmasını və qeyd edilən sahədə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsini təmin edən – Sosial Xidmətlər Vahid İnformasiya Sistemi;
- kənd təsərrüfatı sahəsində idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanıldığı və emal edildiyi informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, monitorinqlərin və analitik təhlillərin aparılmasını, proqnozların hazırlanmasını və qeyd edilən sahədə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsini təmin edən – Aqrar Xidmətlər Vahid İnformasiya Sistemi.

Fərmana əsasən, Kommunal Xidmətlər Vahid İnformasiya Sisteminin operatoru funksiyalarını Energetika Nazirliyi, Sosial Xidmətlər Vahid İnformasiya Sisteminin operatoru funksiyalarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Aqrar Xidmətlər Vahid İnformasiya Sisteminin operatoru funksiyalarını isə Kənd Təsərrüfatı Nazirliyi həyata keçirəcək.

Sənəddə göstərilir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi ilə bağlı texniki tələbləri iki ay müddətində təsdiq etməli, dövlət informasiya ehtiyatlarının və sistemlərinin, habelə elektron xidmətlərin qeydiyyatının həyata keçirilməsi məqsədilə vahid reyestri - «Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri»ni təşkilini və aparılmasını təmin etməlidir. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən elektron xidmətlərin təşkili və göstərilməsi üzrə tələbləri və belə elektron xidmətlərin qeydiyyatı qaydalarını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etməlidir.

**RƏŞAD**

# Yeni yaradılacaq sistem vətəndaş məmnunluğunu təmin edəcək

Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sistemləri əsasında Azərbaycanda «Mərkəzləşdirilmiş elektron informasiya sistemi»nin (MEİS) yaradılması haqqında fərman imzalayıb. Sənədə əsasən, Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi («ASAN xidmət») dövlət orqanları arasında informasiya mübadiləsinin və elektron xidmətlərin göstərilməsinin təmin edilməsi məqsədilə yeni yaradılacaq sistemin «Elektron hökumət» portalı vasitəsilə təşkili üçün tədbirlər görəcək.

Mövzu ilə bağlı müraciət etdiyimiz Milli Məclisin deputatı Tahir Mirkişili qeyd etdi ki, müasir dünyada qabaqcıl informasiya texnologiyaları yeni yanaşmaları və inzibati mühitdə münasibətləri dəyişməklə dövlət fəaliyyətinin lazımi elementinə çevrilir: «Azərbaycanda dövlət idarəetməsində informasiya-kommunikasiya texnologiyaları uğurla tətbiq edilir. Məhz innovasiyalar sayəsində idarəetmənin bir çox istiqamətləri üzrə çevikliyə və şəffaflığa nail olunub. Dövlət başçısının rəhbərliyi ilə ölkədə aparılan sosial siyasət öz məntiqi nəticəsini verməklə yanaşı, bu sahədə islahatların effektivliyini və səmərəliliyini artırmaq üçün əlavə tədbirlərin həyata keçirilməsinə zərurət yaranır. Bu baxımdan, cənab Prezidentin fərmanı ilə yaradılacaq mərkəzi idarəetmə sistemi islahatları sürətləndirəcək, idarəetmədə innovativ metodlardan istifadəyə imkan verəcək və əhalinin sosial xidmətlərdən daha geniş və sürətli istifadəsinə şərait yaradacaq. Çünki gələcəkdə idarəetmədə «Elektron hökumət» daha aktual xarakter daşıyacaq, elektron xidmətlərə tələbat xeyli artacaq».

İqtisadçı ekspert Fikrət Yusifovun bildirdiyinə görə, son illər Azərbaycanda vətəndaş-məmur münasibətlərinin tam şəffaflaşdırılması, bu sahədə neqativ halların birdəfəlik aradan qaldırılması istiqamətində xeyli iş görülüb. Artıq bir sıra xidmətlər «ASAN xidmət» vasitəsilə həyata keçirilir ki, bu da əhalinin bürokratik əngəllərlə qarşılaşmasının, vaxtının hədər getməsinin aradan qalxmasına səbəb olmaqla yanaşı, vətəndaş məmnunluğunun təmin edilməsinə səbəb olur: «Dövlət başçısının imzaladığı yeni sənəd əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində vətəndaşlara şəffaf və operativ xidmət göstərilməsini hədəfləyir. Vətəndaşlarımızın son illər bu sahədəki xidmətlərdən narazılığı artmışdı. Sosial müdafiə və sosial təminata aid problemlərin həllində süründürməçiliyə, neqativ hallara yol verilməsi adi hal almışdı. Bütün bunların qarşısını almaq məqsədilə ölkə Prezidentinin imzaladığı fərmana bir sıra məsələlərə aydınlıq gətirilməsi istiqamətində mühüm rol oynayacaq».

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanda sahibkarlığın inkişaf dinamikası yüksəlir



Sahibkarlığın inkişafı məqsədilə ölkədə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindəndir. Əsas hədəf milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası, qeyri-neft sektorunun, sahibkarlığın inkişafının sürətləndirilməsi əsasında ölkədə əldə olunmuş dinamik inkişafın davamlılığını təmin etməkdir.
Müsahibimiz Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyasının (ASK) vitse-prezidenti Vüqar Zeynalovdur.

**- Vüqar müəllim, Azərbaycanda sahibkarlığın inkişafı sahəsində həyata keçirilən islahatlar sahibkarlar tərəfindən necə qiymətləndirilir?**

- Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda aparılan genişmiqyaslı iqtisadi islahatların əsas məqsədi ölkə iqtisadiyyatının şaxələndirilməsinin təmin olunması, əhalinin rifah halının yaxşılaşdırılması, iqtisadi qüdrətimizin gücləndirilməsidir. Ölkədə biznes mühitinin əlverişliliyi daha da artırılır, biznesə başlama prosedurları sadələşdirilir. «Bir pəncərə» sistemi vasitəsilə sahibkarlar biznesini cəmi 3 gün ərzində qeydiyyatdan keçirə bilir, tələb olunan prosedurların sayı 15-dən 5-ə qədər azaldılıb. Dövlət başçısının fərmanı ilə sahibkarlıq fəaliyyətinin xüsusi lisenziya tələb edilən növlərinin sayı azaldılıb, xüsusi lisenziyanın verilməsi prosedurları sadələşdirilərək şəffaflıq təmin olunub.

İnvestisiya təşviqi sənədi almış sahibkarların ölkəyə gətirdikləri texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə idxal gömrük rüsumundan azad edilib. Qanunvericiliyə edilmiş müvafiq dəyişikliklərə əsasən, investisiya təşviqi sənədi almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı tarixdən mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddır. Bütün bunlar sahibkarların daha səmərəli, məhsuldar və azad fəaliyyət göstərməsinə yönəldilib. Aparılan davamlı iqtisadi islahatların məntiqi nəticəsi olaraq, Azərbaycan «Dünya Bankı»nın «Doing Business 2018» hesabatında 8 pillə irəliləyərək 190 ölkə arasında 65-ci pillədən 57-ci yerə yüksəlib.

Aparılan islahatların nəticəsidir ki, ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin sayı günü-gündən artmaqdadır. Bunun bariz nümunəsidir ki, 2018-ci ilin aprelin 1-nə olan statistikaya əsasən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı daha da çoxalıb.

**- Ölkədə biznesin inkişafı istiqamətində təmsil etdiyiniz təşkilatın tədbirlər planında hansı layihələr yer alıb?**

- ASK-nın fəaliyyəti bir çox sahələri əhatə edir. Bilirsiniz ki, 2001-ci ildən etibarən hər növbəti iki il üçün Azərbaycan hökuməti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və bizim Konfederasiya arasında Baş Kollektiv Saziş imzalanır. Bu sazişdə ASK sahibkarları və işəgötürənləri təmsil edir. Ölkədə üçtərəfli əməkdaşlığın inkişaf etdirilməsi və sosial əmək münasibətlərinin daha mükəmməl mərhələyə keçməsi məqsədilə ASK saziş üzrə öhdəliklərin yerinə yetirilməsində sosial tərəfdaş kimi çıxış edir. Bu məqsədlə biz milli səviyyədə müvafiq dövlət qurumları, eləcə də Beynəlxalq İşəgötürənlər Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı (BƏT), onun mərkəzi və regional strukturları ilə sıx əməkdaşlıq edirik. Bundan əlavə, BƏT ilə birgə sahibkarlar, layiqli əməyin təbliği, əməyin təhlükəsizliyi, qeyri-formal məşğulluqla mübarizə və sair maarifləndirici mövzularda seminar və təlimlər təşkil etmişik. Sentyabrın 25-28 tarixlərində BƏT-in iştirakı ilə «Azərbaycanda effektiv işəgötürənlər təşkilatı» mövzusunda təlimin keçirilməsi nəzərdə tutulur.

Məlumat üçün qeyd edim ki, ASK mütəmadi olaraq sahibkarları müxtəlif təlimlərə cəlb edir. Bu il Dövlət Miqrasiya Xidməti ilə «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinin tənzimlənməsi, müvəqqəti olma müddətinin uzadılması və onlara müvəqqəti yaşamaq üçün icazələrin verilməsi», Dövlət Gömrük Komitəsi ilə birgə «Xarici ticarətin təşviqi: gömrük tənzimlənməsi» mövzularında təlimlər keçirilib.

Vergilər Nazirliyi ilə sıx əməkdaşlığımızın bariz nümunəsi olaraq bu ilin aprel ayında nazirliyin Şamaxıda yerləşən Tədris Mərkəzində keçirilən 2-ci Milli Mühasiblər Forumunda fəal iştirakımızı göstərmək olar. Azərbaycan iqtisadiyyatının qısa, orta və uzunmüddətli inkişaf hədəflərinin müəyyənləşdirildiyi «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi»ndə nəzərdə tutulan kompleks tədbirlər sırasında hesabatlığın təkmilləşdirilməsi və şəffaflığın artırılması xüsusi vurğulanıb. Bu baxımdan, ölkəmizdə maliyyə nəzarətinin, maliyyə və vergi intizamının möhkəmləndirilməsi, maliyyə vəsaitlərindən istifadə olunmasında hesabatlığın və şəffaflığın beynəlxalq standartlar əsasında yüksək səviyyədə qurulması ilə bağlı məsələlərin belə forumlarda müzakirəsi böyük əhəmiyyət kəsb edir. Vergilər Nazirliyi ilə əməkdaşlıq çərçivəsində bu cür forumların ənənəvi olaraq hər il keçirilməsi istiqamətində müvafiq addımlar atmaq əzmindəyik.

Artıq iki ildir ki, «Peşə təhsili sahəsində əməkdaşlıq» adlı layihəni icra edirik. Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi və Almaniya İqtisadi İnkişaf Fondu tərəfindən maliyyələşdirilən layihənin əsas məqsədi Azərbaycanda gənclər arasında məşğulluğun artırılması üçün sahibkarlarla peşə təhsil müəssisələri arasında əməkdaşlığı gücləndirmək və əmək bazarının ehtiyaclarına uyğun kadrların hazırlanmasına dəstək olmaqdır. Layihə çərçivəsində «Öz biznesinə başla» təlimat kitabçası nəşr olunub və əmək bazarının monitorinqi sistemi yaradılıb. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nə uyğun olaraq, gənclərdə sahibkarlıq düşüncə tərzinin təşviqi və insanlarda sahibkarlıq ruhunun formalaşdırılması məqsədilə Milli Konfederasiya «İş yeri axtarma, iş yeri yarat» adlı daha bir layihə həyata keçirir. Layihə çərçivəsində tələbələr üçün respublikanın tanınmış və təcrübəli sahibkarlarının peşəkar təqdimatlarla çıxışı nəzərdə tutulur. Məqsəd ali məktəb müəssisələrində təhsil alan tələbələrdə sahibkarlıq təfəkkürünün formalaşdırılması və gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsidir.

**- ASK-nın beynəlxalq əlaqələri haqqında nə deyə bilərsiniz?**

- Konfederasiyamız Azərbaycanın biznes mühiti barədə beynəlxalq ictimaiyyətə geniş məlumatların verilməsi, ölkələrarası biznes əlaqələrinin genişləndirilməsi sahəsində ardıcıl fəaliyyət göstərməkdədir. ASK bütün xarici diplomatik missiyalarla, eləcə də digər sosial-iqtisadi yönümlü beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. İpək Yolu Beynəlxalq Ticarət Palatası, Dünya KOS Forumu, Beynəlxalq Sahibkarlar və Sənayeçilər İttifaqı, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurası, Türkdilli ölkələrin Əməkdaşlıq Şurası ilə əməkdaşlıq edirik və həmin təşkilatların bir çoxunun üzvüyük. Bundan başqa, ASK-nın Rusiya, Çin, İtaliya, İspaniya, Böyük Britaniya, Fransa, Danimarka, Bolqarıstan, Moldova, Macarıstan, Çexiya, Polşa, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri və Ukraynada rəsmi nümayəndəlikləri fəaliyyət göstərir.

**- Konfederasiya ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı hansı təklifləri irəli sürmək niyyətindədir?**

- Təşkilatımız dövlətin sosial tərəfdaşı kimi mütəmadi olaraq bir sıra təkliflərlə çıxış edir. Misal üçün: «Peşə Təhsili haqqında» qanun layihəsinin hazırlanmasında yaxından iştirak etmiş, həmin qanunda işəgötürənlərin maraqlarını müdafiə edən müddəaların salınmasına səy göstərmişik. Bundan başqa, ASK-nın dövlət-özəl sektoru ilə birgə əməkdaşlığının təcəssümü olaraq, cari il ərzində təşkil etdiyimiz tədbirlərdə Vergilər Nazirliyinin və Dövlət Gömrük Komitəsinin rəhbərliyinin sahibkarlarla görüşlərini göstərmək olar. Çox yaxşı haldır ki, bu gün ölkədə islahatların hazırlanmasında və həyata keçirilməsində sahibkarlar və onların təşkilatları da iştirak edirlər. Lakin bu işin daha faydalı və effektiv olması, eləcə də iş adamlarının maraqlarının sistemli müdafiəsi üçün bu tipli müzakirələrdə sahibkarların təşkilatlanması, sağlam təkliflərlə çıxış etməsi çox vacibdir. Bu gün sahibkarlar təşkilatları Azərbaycan üçün yeni bir məfhumdur və onların inkişafı üçün zamana ehtiyac var. Düşünürəm ki, ölkəmizdə dövlət-özəl əməkdaşlığının mexanizmlərini daha da təkmilləşdirmək, daimi fəaliyyət göstərəcək platformalar yaratmaq lazımdır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yalnız davamlı dövlət-özəl əməkdaşlığı mexanizmləri vasitəsilə dayanıqlı iqtisadi inkişafa xidmət edəcək effektiv qanunvericilik və idarəetmə çərçivəsi yaratmaq mümkündür.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Maliyyə Nazirliyinin təqdim etdiyi məlumatlara əsasən, 2018-ci ilin yanvar-avqust aylarında dövlət büdcəsinin gəlirləri **14.029,7 milyon** manat, xərcləri isə **13.485,7 milyon** manat təşkil edib.
- Bu il Azərbaycanda **25,7 milyon** ton neft və **12,1 milyard** kubmetr əmtəəlik qaz çıxarılıb.
- 2018-ci ilin ilk səkkiz ayında Azərbaycandakı magistral qaz kəmərləri ilə **15 milyard 40,5 milyon** kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,5% artım müşahidə olunub.
- Cari ilin yanvar-avqust aylarında sənayenin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda **1 milyard 278,4 milyon** manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.

## 2018-ci İLİN AVQUST AYI ƏRZİNDƏ

**Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 20.034 zəng cavablandırılıb**

| Verilmiş «ASAN imza» sertifikatlarının sayı | Fəaliyyəti bərpa edilmiş vergi ödəyicilərinin sayı |
|---|---|
| 13.077 | 8.100 |

**QEYDİYYATA ALINMIŞDIR**

| hüquqi şəxslər | cəmi | fiziki şəxslər |
|---|---|---|
| 947 | 5.906 | 4.959 |

| Təsərrüfat subyekti (obyekti) | Nəzarət-kassa aparatı | POS-terminal |
|---|---|---|
| 2.261 | 1.241 | 680 |

**VERGİ ÖDƏYİCİLƏRİNƏ XİDMƏT STRUKTURLARINDA**
qəbul edilmişdir: 29.002
onlara göstərilmiş xidmətlərin sayı: 42.431

**VERGİLƏR NAZİRLİYİNİN RƏSMİ İNTERNET SƏHİFƏSİNƏ DAXİLOLMALARIN SAYI**
268.509

# Vergilər Nazirliyinin əməkdaşları Koreyada təlim kurslarında olublar

«Samsung», «LG», «Daewoo», POSCO, SK Hynix, «Hyundai», «Kia»... Uzaq Şərq ölkəsi olan Cənubi Koreya Respublikasının bu nəhəng şirkətlərinin istehsal etdiyi məhsullar bütün dünyada məşhurdur. Elə Azərbaycan bazarında da bu şirkətlərin məhsulları böyük üstünlüyə və paya malikdir. Hazırda məişətdə istifadə etdiyimiz elektrik cihazlarının, mobil rabitə vasitələrinin, avtobus və avtomobillərin əksəriyyəti uzaq Koreyada istehsal olunur. Məhz bu cür iri istehsal müəssisələri hesabına dünyanın ən sürətli inkişaf mərhələsi keçmiş ölkələr sırasında öncül yerlərdən birini tutan Koreyada adambaşına düşən ümumi daxii məhsul (ÜDM) 32,7 min ABŞ dollarından çoxdur. Dünyanın neft idxal edən 4-cü ölkəsi sayılan Koreya hazırda il ərzində 570 milyard dollar həcmində məhsul ixrac edir. Şərqi Asiyada – Koreya yarımadasında yerləşən bu ölkənin sürətli inkişaf dövrü 1961-1991-ci illəri əhatə edən 30 illik dövrə təsadüf edir. Hazırda burada elektronika, kimya sənayesi, maşınqayırma, innovativ texnologiyalar geniş yayılıb, əmək qabiliyyətli əhalinin böyük bir qismi məhz bu sahələrdə çalışır. Ölkənin əsas gəlirləri də həmin sahələrdən formalaşır.




Bəs, bu sürətli iqtisadi inkişafın sirri nədədir? Vergilər Nazirliyinin Koreyada təlim kurslarından yenicə qayıtmış əməkdaşlarının keçirdiyi seminarda səsləndirilən fikirlər bu suala tutarlı cavabdır. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) və Milli Vergi Agentliyinin Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşları üçün Koreyada təşkil etdiyi 14 günlük təlim kursunun nəticələrinə həsr olunmuş seminar işgüzar müzakirələrlə müşayiət edilib. Avqustun 19-dan sentyabrın 1-dək Sonnam şəhərində «Vergi inzibatçılığı təcrübəsi üzrə potensialın gücləndirilməsi - Koreya vergi sisteminin müqayisəli öyrənilməsi» mövzusunda keçirilən təlim kursunda Vergilər Nazirliyinin müvafiq strukturlarının əməkdaşlarından ibarət nümayəndə heyəti iştirak edib. Səfərdən sonra Vergilər Nazirliyinin Tədris Mərkəzində təşkil edilən seminarda Koreyanın vergi inzibatçılığı sahəsində təcrübəsi geniş müzakirə olunub.

Tədris Mərkəzinin «Vergi metodologiyası» kafedrasının müdiri Malik Əkbərov seminarda təqdimatla çıxış edərək bildirib ki, «Vergi inzibatçılığı üzrə potensialın artırılması Proqramı» çərçivəsində Koreyada keçirilən təlim kursu Milli Vergi Xidmətinin (KNTS) strukturu və yeniliklər, Yeni nəsil vergi administrasiyaları sistemi, KTNS-in əsas funksiyaları və gələcək inkişafı, ƏDV və mənfəət vergisi, xarici şirkətlərin vergitutma bazasının idarə olunması, elektron vergi hesab-fakturası, ümumi gəlir vergisi və bəyannamələrinin idarə edilməsi də daxil olmaqla 10-dan çox mövzunu əhatə edib. Bildirilib ki, Koreya vergi inzibatçılığı və korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl təcrübəyə malikdir. Kommersiya banklarının milliləşdirilməsi, texnokratlardan ibarət İqtisadi Planlaşdırma Şurasının yaradılması, beşillik inkişaf planlarının tətbiq olunması, xarici investisiyalara güzəştlər Koreya iqtisadiyyatının sürətli inkişafını təmin edən əsas amillər sırasındadır: «Koreyalıların belə bir strategiyası da var: «Yaponlar nə edirsə onu etməli, amma daha ucuz və daha tez». Ölkənin iqtisadi inkişaf mərhələlərinə nəzər saldıqda məlum olur ki, yüksək texnologiyalar sahəsində dünya liderləri olan elektronika və avtomobil şirkətləri əvvəllər kiçik müəssisələr kimi fəaliyyətə başlayıb. 1945-ci ildə əsası qoyulan «Hyundai» şirkəti ABŞ ordusu və Koreya hökumətinin sifarişlərini yerinə yetirən tikinti şirkəti kimi fəaliyyət göstərirdi. Yaxud dünyaca məşhur «LG» kompaniyası 1947-ci ildə kimya məhsulları istehsal edən şirkət kimi fəaliyyətə başlayıb və ölkənin əsas diş məcunu istelsalçısı olmuşdu. Yalnız Koreyada təhsilin, elmin sürətli inkişafından sonra bu cür xırda müəssisələr böyüyərək iri şirkətlərə çevrilib. Hazırda Koreya şirkətlərinin istehsal etdiyi avtomobillərin, televizorların, mobil telefon və planşetlərin, məişət avadanlıqlarının mühüm hissəsi xaricə ixrac olunur və bundan milyardlarla dollar dövlətin büdcəsinə qazanc gəlir. Yəni təhsil, elm və texnologiya sahəsində əldə olunmuş nailiyyətlər Koreyanı güclü iqtisadi potensialı olan ölkə kimi bütün dünyada tanıdıb. 1980-ci ildə gəmiqayırama sahəsində dünyanın ikinci dövlətinə çevrilən Koreya sifarişləri ən tez yerinə yetirən dövlət statusu əldə edib».

Təqdimatında Koreya vergi sisteminin özəlliklərindən də danışan M.Əkbərov qeyd edib ki, 2007-ci ildən ölkədə muzdlu işdən gəlir vergisi üzrə kredit sistemi tətbiq olunur. 2015-ci ildən isə bu cür güzəştlər aşağı gəlirli vergi ödəyicilərinə də şamil edilir. Həmçinin fərdi sahibkarlar da gəlir vergisindən güzəşt hüququna malikdirlər.

Koreyada vergitutma mexanizmlərinin Azərbaycandakından əhəmiyyətli dərəcədə fərqləndiyini deyən natiqin fikrincə, bu fərqlilik mənfəət vergisinin tətbiqində və vergi bəyannamələrinin tərtib olunmasında özünü daha çox göstərir. Belə ki, illik gəliri 200 milyon Koreya vonunadək (KRW) olan - (təxminən 200 min ABŞ dolları) vergi ödəyiciləri üçün 10 faiz, 200 milyon - 20 milyard KRW-dən 20 faiz, 20 milyard KRW-dən çox olan məbləğə 22 faiz, 300 milyard KRW-dən çox olan məbləğə isə 25 faiz həddində mənfəət vergisi tətbiq olunur. Mənfəət vergisi bəyannaməsinin iki formatı var, iri şirkətlər üçün ikinci formatın seçilməsi məcburidir. Tətbiq edilən maliyyə sanksiyaları isə yol verilən qanun pozuntusunun qəsdən və ya bilməyərəkdən törədilməsindən asılıdır.

Seminarda çıxış edən Tədris Mərkəzinin kafedra müdiri İmran Qarayev Koreyada kiçik və orta sahibkarlıq fəaliyyətinin stimullaşdırılması mexanizmlərindən, bu sahəyə tətbiq olunan vergi güzəştlərindən bəhs edib. Qeyd edib ki, Koreyanın vergi siyasətində kiçik və orta sahibkarlığın inkişafına xüsusi önəm verilir. Məhz bunun nəticəsidir ki, bu sahənin fəaliyyətindən toplanan vergilərin dövlət büdcəsindəki payı yüksək faizlərlə ifadə olunur: «Koreyada kiçik və orta müəssisələr investisiya məbləğinin 25 faizi həcmində vergi güzəşti əldə edirlər. İri müəssisələr 10 milyon dollardan çox investisiya qoyduqda, onlara 3 faiz vergi güzəşti tətbiq olunur».

Təqdimatlardan sonra seminar sual-cavab və müzakirələr əsasında davam etdirilib. Qeyd olunub ki, Koreyanın vergi siyasəti və inzibatçılığı, habelə müasir texnoloji yeniliklərin tətbiqi sahəsində qazandığı təcrübənin öyrənilməsi Azərbaycanın vergi əməkdaşları üçün də böyük faydalar verə bilər.

**Elxan SALAHOV**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# ƏDV-nin əvəzləşdirilməsi

***Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslər tərəfindən həmin fəaliyyət üzrə digər şəxslərdən alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilirmi?***

Vergi Məcəlləsinin 164.1.18-ci maddəsinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr 2014-cü il yanvarın 1-dən 5 il müddətinə ƏDV-dən azaddır.

Vergi Məcəlləsinin 175.6-cı maddəsinin müddəalarına görə ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən bu maddə ilə müəyyən edilmiş qaydada ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir.

**Qeyd olunanlara əsasən:** Kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı digər şəxslərdən alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Şirvan şəhərində 5 saylı ƏVİ-nin əməkdaşları sahibkarlarla görüş keçirmişlər. Tədbir zamanı «Elektron qaimə-fakturanın forması» və «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları», 2018-ci il 1 yanvar tarixindən etibarən statusundan asılı olmayaraq bütün vergi ödəyiciləri tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin,xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi, eləcə də açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi və digər məsələlər ətrafında müzakirələr aparılıb. Sahibkarlara Vergilər Nazirliyinin rəsmi internet səhifəsində vergi ödəyicilərinə təklif olunan elektron xidmətlərdən istifadə qaydaları, aylıq, rüblük vergi bəyannamələrinin hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi, vergilərin elektron formada ödənilməsi və bu kimi digər qanunvericilik aktları ilə bağlı izahedici məlumatlar çatdırılıb.

- Hacıqabul şəhərində 5 saylı ƏVİ tərəfindən bələdiyyə üzvləri ilə görüş keçirilmişdir. Tədbirin əsas məqsədi «Azərbaycan Respublikasının Vergi Məcəllәsi ilə nəzərdə tutulmuş yerli (bələdiyyə) vergilərinin növü, məzmunu, hesablanması, tətbiqi və ödənilməsi qaydaları», «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektinin uçota alınması» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu» ilə bağlı metodiki vəsaitlərin tətbiqi barədə maarifləndirmə işinin təşkilindən ibarət olmuşdur.

- Masallı şəhərində rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrlə görüş keçirilmişdir. Tədbirdə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi, rüblük vergi bəyannamələrinin, hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi qaydaları və vergilərin elektron qaydada ödənilməsi qaydaları barədə söhbət aparılmışdır. Görüşdə açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, Vergilər Nazirliyi tərəfindən təsdiq olunan tədbirlər planları, vergi qanunvericiliyi, elektron xidmətlər, onlayn ödəmə, bəyannamələrin vaxtında təqdim edilməsi, vergi öhdəliklərinin yerinə yetirilməsi və digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

- Şabran şəhərində 3 saylı ƏVİ-nin əməkdaşları rayon ərazisində fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüş keçirmişlər. Tədbirdə «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qayda»ları, işəgötürənlər tərəfindən işlərin görülməsinə cəlb edilən fiziki şəxslərin rəsmiləşdirilməsi və qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə bağlı məsələlər müzakirə edilmiş, vergidən yayınan şəxslərdə aparılacaq nəzarət tədbirləri, tətbiq ediləcək maliyyə sanksiyaları barədə söhbət aparılmışdır. Görüşdə «Elektron qaimə-fakturanın tətbiqi və vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları» iştirakçılara izah edilmiş, statusundan asılı olmayaraq, bütün vergi ödəyiciləri tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın təqdim olunmasının vacibliyi diqqətə çatdırılmışdır. Sonda tədbir iştirakçılarının sualları ətraflı cavablandırılmışdır.

- Biləsuvar şəhərində 6 saylı ƏVİ-nin əməkdaşları tərəfindən rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrlə görüş keçirilmişdir. Tədbirdə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi, «Rüblük vergi bəyannamələrinin, hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi Qaydaları», habelə elektron xidmətlər və vergilərin elektron qaydada ödənilməsi qaydaları barədə maarifləndirici söhbət aparılmışdır. Görüşdə, həmçinin, açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, Vergilər Nazirliyi tərəfindən təsdiq olunmuş tədbirlər planları, vergi qanunvericiliyi, elektron xidmətlər, onlayn ödəmə, bəyannamələrin vaxtında təqdim edilməsi və vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

# Xidmət mərkəzləri - vergi ödəyicilərinin üz tutduğu doğma məkan

Azərbaycanda vergi xidmətinin təkmilləşdirilməsi, modernləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması prosesi davam edir. Bu istiqamətdə Vergilər Nazirliyi tərəfindən atılan addımlardan biri də vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətinin səmərəliliyinin artırılmasıdır. Əsas məqsədi vergi ödəyicilərinə yüksək səviyyədə keyfiyyətli xidmət göstərmək olan bu cür mərkəzlərin böyük əksəriyyətinin regionlarda fəaliyyət göstərməsi ölkənin hər yerində bizneslə məşğul olan vətəndaşlar üçün bərabər imkanlar yaradılmasını təmin edir.

### Vergi ödəyicilərinə göstərilən xidmətlər...

Vergilər Nazirliyi yanında Kiçik sahibkarlarla iş departamentinin Vergi ödəyicilərinə xidmət və uçot idarəsinin Vergi ödəyicilərinin qəbulu və xidməti şöbəsinin rəhbəri Ramil Şəkərov bildirdi ki, bu gün vergi ödəyicisi vergi orqanına getmədən yaşadığı və ya fəaliyyət göstərdiyi ərazidəki xidmət mərkəzinə müraciət edərək vergilər barədə məlumat və izahatların alınması, vergi ödəyicilərinin və təsərrüfat subyektlərinin qeydiyyatı, qeydiyyatdan çıxarılması və qeydiyyat məlumatlarının dəyişdirilməsi, vergi bəyannamələrinin, hesabatların, ərizələrin və digər sənədlərin vergi orqanına göndərilməsi, nəzarət-kassa aparatlarının qeydiyyatı və qeydiyyatdan çıxarılması, hazır sənədlərin və arayışların alınması, «ASAN imza»nın, habelə istifadəçi kodu, şifrə və parolun əldə edilməsi, dəyişdirilməsi, uyğunsuzluq məktublarının araşdırılması və s. bu kimi xidmətlərdən istifadə etmək imkanına malikdir. Mərkəzlərdə vergi qanunvericiliyi və qanunvericilikdə edilən dəyişikliklər, qüvvədə olan vergilər, onların hesablanması və ödənilməsi qaydaları, vergi bəyannamələrinin tərtib edilməsi və təqdim olunma müddətləri, vergi orqanlarında qeydiyyat məsələləri, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri haqqında məlumat və izahatlar verilir.

Şöbə rəhbəri onu da qeyd etdi ki, 2018-ci ilin avqust ayınadək Bakı şəhəri üzrə ümumilikdə 4 xidmət mərkəzində 90.000-dən çox müraciət qeydə alınıb.

### Xidmət mərkəzində bir gün...

Mirəli Qaşqay küçəsi 56 ünvanında yerləşən Xidmət Mərkəzi, ərazi prinsipi nəzərə alınmaqla, bütün vergi ödəyicilərinə xidmət göstərir. Respublika üzrə xidmət mərkəzlərində olduğu kimi, burada da vergi ödəyicilərinə Vergilər Nazirliyinin internet səhifəsində və İnternet Vergi İdarəsində yaradılan xidmətlər barədə ətraflı məlumat əldə etmək, e-bəyannamə, «Onlayn kargüzarlıq» və digər elektron xidmətlərdən istifadə qaydaları ilə tanış olmaq imkanı yaradılıb. Son zamanlar «ASAN imza» xidməti də mərkəzin əsas fəaliyyət istiqamətlərindən birinə çevrilib.

Müasir avadanlıqlarla, sürətli kommunikasiya sistemi ilə təchiz edilən xidmət mərkəzində eyni vaxtda bir neçə vergi ödəyicisinin qəbulu, suallarının cavablandırılması, sənədlərin tərtibatı və onlara müvafiq izahatların verilməsi üçün müvafiq şərait yaradılıb. Xidmətlər Vergilər Nazirliyinin aidiyyəti vergi orqanının müvafiq strukturunun əməkdaşı tərəfindən həyata keçirilir.

Xidmət mərkəzinə daxil olan vergi ödəyicisi ilə tənzimləyici şəxs arasında ilkin sorğudan sonra vətəndaş elektron növbə aparatına yönəldilir. Gözləmə zalında növbədə dayanan vətəndaşların vaxtdan səmərəli istifadəsi üçün zalda quraşdırılmış monitorda bir sıra maarifləndirici süjetlər, o cümlədən xidmət mərkəzinin fəaliyyəti və vergilərə dair video-çarxlar nümayiş etdirilir. Xüsusi mesajlar, eləcə də Vergilər Nazirliyi tərəfindən həyata keçirilən layihə və ya yenilik ekranın yazı lenti vasitəsilə vətəndaşlara çatdırılır.




«Özünəxidmət» guşəsi bütün vergi ödəyiciləri üçündür. Buradakı kompüterlər vasitəsilə vətəndaşlar vergilərlə bağlı əməliyyatlarını apara bilərlər. Məlumat lövhəsində qəbul zonasında vergi ödəyiciləri tərəfindən doldurulan ərizə formalarının nümunələri, çağrı və xidmət mərkəzinin fəaliyyəti, mərkəzə müraciət etmək üçün hansı addımların atılmalı olduğu barədə xüsusi bildiriş forması nümayiş etdirilir. Burada vətəndaşların rahatlığı üçün printer, skaner, surətçıxarma aparatları da var. Guşədə «195-1» Çağrı Mərkəzi ilə bilavasitə əlaqə yaratmaq üçün quraşdırılmış telefon vasitəsilə şifahi suallar cavablandırılır.

### Xidmət personalı...

*Xətai İsmayılzadə:* «Təmsil etdiyim mərkəz elektron xidmətlər, yazılı müraciətlərin, narazılıq məktublarının qəbulu, şikayətlər və şifahi xidmətlər, vergi borcunun araşdırılması, ümumilikdə vergi ödəyicilərinə keyfiyyətli xidmət göstərməklə yanaşı, onların hüquqlarını müdafiə etmək məqsədi daşıyır. Adi vaxtlarda gün ərzində 100-120 nəfərin müraciətinə baxılırsa, hesabat dövründə bu göstərici 400 nəfəri keçir. Müraciətlər, əsasən, vətəndaşların onlayn qeydiyyatı, vergi uçotuna alınma, hüquqi şəxsin uçota alınması ilə bağlı olur ki, biz də onlara «ASAN imza» vasitəsilə kömək edirik. Vətəndaşlar daha çox vergi orqanında uçota durmaq, rezidentlik haqqında arayışlar, «ASAN imza» sertifikatlarının alınması, ən çox da bəyannamələrin təqdim olunması ilə bağlı müraciət edirlər. Burada, həmçinin, müraciət edənlərin səsi yazılır və məmnunluğun ölçülməsi üçün vətəndaşların razı və ya narazı qalmasının qeydiyyatı aparılır».

*Aytac Baloğlanova:* «Biz vergi qanunvericiliyinə uyğun olaraq sənədlərlə bağlı ortaya çıxan uyğunsuzluqların aradan qaldırılmasında, yanlışlıqların araşdırılmasında vətəndaşlara kömək edirik. Müraciətlər müxtəlif xarakterli olur: fiziki şəxsin, obyektlərin, kassaların qeydiyyatı, müxtəlif arayış formaları, tenderdə iştirak, fiziki şəxsin ləğvi və s. Əksər hallarda bəyannamələrdə qaranlıq məqamlar olur ki, biz onu müraciət vərəqəsi kimi araşdırmaya veririk. Hüquq pozuntusu ilə bağlı müraciətləri nazirliyə ünvanlayırıq. İşimizin gedişatında hər şey qaydalara uyğun tənzimlənir».



Hazırda ölkə üzrə fəaliyyət göstərən 57 vergi ödəyicilərinə xidmət mərkəzində bu ilin yanvar-avqust aylarında 260.219 vergi ödəyicisinə 377.422 sayda xidmət göstərilib. Vətəndaşlar daha çox vergi bəyannamələrinin, hesabat, ərizə, arayış və digər sənədlərin tərtib edilməsi, onların elektron göndərilməsi, vergi borcunun öyrənilməsi və s. xidmətlərdən istifadə ediblər.

### Vergi ödəyicilərinin rəyi...

Mirəli Əliyev xidmət mərkəzində vergi ödəyicilərinin hüquqlarının yüksək səviyyədə müdafiə olunduğu qənaitindədir: «Bu gün kod, parol və şifrə üçün müraciət etdim və xidmətdən məmnun qaldım. Əvvəllər belə təkmilləşdirilmiş mərkəzlər olmadığından vergi ilə bağlı müəyyən çətinliklərlə qarşılaşırdıq. Bu gün peşəkar işçilərin köməyi ilə suallarımıza ətraflı cavab ala bilirik. Bura sahibkarlar üçün doğma ocaqdır».

*Emil Mirzəyev:* «Xidmət mərkəzinə dəfələrlə müraciət etmişəm və həmişə problemlərimi yoluna qoya bilmişəm. Bu dəfə də kod, parolla bağlı müraciətim uğurla nəticələndi və operativ qaydada həllini tapdı».

*Ceyhun Xəlilov:* «Biz xidmət sahəsində fəaliyyətimizlə bağlı hüquqi şəxs kimi VÖEN açdırmaq üçün burdayıq. Çox mədəni və işinə peşəkarcasına yanaşan personal bizə operativ xidmət göstərir. Bura gələn insan özünə hörmət qoyulduğunu hiss edir. Bu, sahibkar üçün çox önəmlidir, dəyişikliklərin və inkişafa doğru irəliləyişin göstəricisidir».

*Ramin Mirağayev:* «VÖEN-də bəzi problemlərlə bağlı müraciət etmişəm. Sistemdə nəsə bir problem olan kimi, xidmət mərkəzinə üz tuturam. Buradakı çevik, operativ xidmət personalından çox razıyam».

*Rahim Quliyev:* «Yeni yaratmaq istədiyim şirkətin təsisi ilə bağlı müraciət etmək istəyirəm. Hələ ki, heç bir problemim, şikayətim yoxdur».

*İsmayıl Hüseynov:* «İşimdəki müəyyən uyğunsuzluqla əlaqədar müraciətim anlayışla qarşılandı. Bir neçə müəssisənin baş mühasibi kimi suallarıma müsbət cavablar aldım. 42 ildir ki, mühasib kimi fəaliyyət göstərirəm. Bir şeyi qeyd edim ki, yeni qaimə-fakturalarda ən çətin məqam birdəfəyə bir neçə qaimənin hazırlanması və onların ötürülməsi ilə bağlı olur. Sistem yüklü olduğundan, gözləməyə məcburuq».

*Vüqar Həsənov:* «Şirkət yaratmaq istəyirik, hüquqi məsələlərlə bağlı müraciətim qısa müddətdə həll olundu. «ASAN imza» vasitəsilə qeydiyyatı əldə etdim. Hələ ki, elə bir problemlə üzləşməmişəm...».

**F. İKRAMQIZI**

# «Azərbaycan» qəzeti 100 yaşını qeyd edir

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarlarından biri, dövlət müstəqilliyimizin yaşıdı olan «Azərbaycan» qəzetinin 100 yaşı tamam olur. Bu qəzet xalqımızın milli oyanış prosesində, habelə dövlət və dövlətçilik ideyalarının formalaşmasında böyük və əvəzolunmaz rol oynayıb. 1918-ci il sentyabrın 15-də ilk sayı işıq üzü görən «Azərbaycan» qəzeti «Əkinçi»dən aldığı bayrağı şərəflə daşıyıb.

«Azərbaycan» qəzetinin işıq üzü görməsi Qafqaz İslam Ordusunun Bakını daşnak-bolşevik işğalından azad etdiyi günə təsadüf etmişdi. Nuru paşanın müvafiq teleqramı ilə açılan qəzetin ilk sayı bu tarixi hadisəyə həsr olunmuşdu. İlk sayı Gəncədə çap olunan qəzetin redaksiyası Bulatov küçəsindəki 26 saylı evdə yerləşmiş, buradakı sonuncu - dördüncü sayı sentyabrın 25-də nəşr edilmişdi. Sonradan fəaliyyətini Bakıda davam etdirən «Azərbaycan» qəzetinin, ümumilikdə, Azərbaycan dilində 443, rus dilində isə 438 sayı nəşr olunmuşdu. Qəzetə müxtəlif vaxtlarda Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Xəlil İbrahim və digər görkəmli ziyalılar redaktorluq etmişdi.

«Azərbaycan» qəzetinin keçdiyi yol göstərir ki, o, azərbaycançılıq məfkurəsinin, istiqlal idealının qəzeti kimi, onu Azərbaycan Xalq Cümhuriyyətinin mətbu salnaməsi də adlandırmaq olar. Qəzetin Gəncə və Bakı nəşrlərində Xalq Cümhuriyyəti hökumətinin həyatında baş vermiş bütün hadisələr və proseslər öz dolğun əksini tapmışdı. Cümhuriyyətin istiqlal bəyannaməsi, milli parlamentin fəaliyyəti, Bakı Dövlət Universitetinin yaradılması və digər tarixi hadisələr qəzetin səhifələrində obyektiv işıqlandırılmışdı.




Cümhuriyyətin süqutu və bolşevik Rusiyasının Azərbaycanı işğal etməsi ilə müstəqilliyimizə son qoyuldu, o cümlədən «Azərbaycan» qəzetinin nəşri də dayandırıldı. Nəhayət, 1990-cı ildən sonra Azərbaycanda müstəqil dövlətçilik uğrunda mübarizənin dönməz xarakter alması yeni tipli dövlət qəzetinin yaranması zərurətini meydana çıxardı. Həmin illərdə Qarabağa Xalq Yardımı Komitəsinin orqanı qismində «Azərbaycan» adlı qəzet nəşr olunduğu üçün yeni dövrün dövlət qəzeti bir müddət «Həyat» adı ilə nəşr edildi. 1992-ci ilin sentyabrında Azərbaycan Respublikasının parlament orqanına öz tarixi «Azərbaycan» adı qaytarıldı. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra «Azərbaycan» qəzeti əsl rəsmi dövlət qəzeti kimi fəaliyyət göstərməyə başladı. Bu dövrdən etibarən müstəqil Azərbaycan mövzusu və azərbaycançılıq qəzetin əsas qayəsinə çevrildi.

Bu gün «Azərbaycan» qəzeti ölkəmizin siyasi həyatında parlamentarizm düşüncəsinin daha da aydınlaşdırılmasına və möhkəmləndirilməsinə öz töhfəsini verməkdədir. «Azərbaycan» qəzetinin 100 illiyi, eyni zamanda, ölkə mətbuatının bayramıdır. Biz də bu bayram sevincinə qoşulur, qəzetin kollektivini və oxucularını təbrik edirik. 100 yaşınız mübarək!

# Hər bir vətəndaş dövlətin verdiyi hüquqlardan yararlanmaq haqqına sahibdir

## Vergilər Nazirliyinin «Vergilər» qəzetinin təşkilatçılığı ilə «Sülh aylığı» çərçivəsində «dəyirmi masa» keçirilib

Tədbiri giriş sözü ilə açan «Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev bildirib ki, respublikamızda vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsi ölkədə həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindəndir. Son illərdə insan hüquq və azadlıqlarının təminatına xidmət edən xeyli sayda qanun, sərəncam, fərman, dövlət proqramı imzalanaraq qüvvəyə minib. Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində də insan amili ölkədə həyata keçirilən siyasətin əsasında dayanır, dövlət qurumları ilə vətəndaşlar arasında münasibətlərin sivil, şəffaf və qanunamüvafiq qaydada qurulması məqsədilə müasir, çevik və işlək mexanizmlərin tətbiqi xüsusi diqqətdə saxlanılır: «Təəssüf ki, dövlətin insanların hüquqlarının qorunmasına bu qədər önəm verdiyi halda, bəzi vətəndaşlar hüquqlarını bilmir, yaxud öz hüquqları uğrunda mübarizə aparmırlar. Bu məsələdə medianın da üzərinə ciddi iş düşür: mətbuat orqanları vətəndaşların hüquqlarının qorunmasında davamlı olaraq maarifləndirmə işləri həyata keçirməli, cəmiyyətə bunun mühüm əhəmiyyətini anlatmalıdır. Belə olduğu halda, ölkədə insan hüquqpozmalarının sayı da azalacaq. Hesab edirik ki, cəmiyyətin hüquqi sahədə maarifləndirilməsi dövlət qurumları ilə vətəndaşlar arasında inam və etimadın möhkəmləndirilməsinə də öz töhfəsini verəcəkdir».

Diqqətə çatdırılıb ki, bugünkü «dəyirmi masa»nın da məqsədi dövlət qurumlarında insan hüquq və azadlıqlarının qorunması vəziyyətinə, bu sahədə əldə olunmuş uğurlara, çatışmazlıqlara nəzər salmaq, qarşıda duran vəzifələri obyektiv şəkildə müzakirə etməkdir.



### «Sülh aylığı» hamını bir araya gətirən platformaya çevrilib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) şöbə müdiri Faiq Ağayev bildirib ki, hər il sentyabrın 21-də dünyada beynəlxalq «Sülh günü» kimi qeyd olunur. Bu tarixi günün təsis edilməsində əsas məqsəd bütün ölkələri və xalqları həmin gün hərbi əməliyyatları dayandırmağa, sülh problemləri ilə bağlı təhsil və ictimai maarifləndirmə tədbirləri keçirməyə dəvət etməkdir: «Təqdirəlayiq haldır ki, respublikamızda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə qəbul olunmuş Milli Fəaliyyət Proqramında insanların hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi təsbit edilib. Ombudsmanın təşəbbüsü ilə avqustdan 21-dən sentyabrın 21-dək respublikamızda «Sülh aylığı» elan olunub və həmin ay çərçivəsində dövlət qurumları, yerli icra hakimiyyətləri, qeyri-hökumət təşkilatları tərəfindən silsilə tədbirlər keçirilir. «Sülh aylığı» hamını bir araya gətirən mühüm platformaya çevrilməkdədir və cəmiyyətin hər bir üzvünün diqqətini bu məsələyə yönəltməklə xoş missiyaya xidmət edir».

F.Ağayev ölkə vətəndaşlarının, o cümlədən vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sahəsində görülən işlərə diqqət çəkərək qeyd edib ki, 2013-cü ildə Ombudsman Aparatında yaradılmış «Biznes və insan hüquqları üzrə işçi qrupu»nda aidiyyəti dövlət qurumları və sosial-iqtisadi sahələr üzrə fəaliyyət göstərən QHT-lərin nümayəndələri təmsil olunub. Həmin təşkilatların nümayəndələrinin və Vergilər Nazirliyinin yüksək vəzifəli şəxslərinin iştirakı ilə keçirilən tədbirlərdə sahibkarların hüquqlarının etibarlı şəkildə qorunması, bu sahədə meydana çıxan problemlərin aradan qaldırılması və digər məsələlər müzakirə edilir. Eyni zamanda, vergi ödəyicilərinin Ombudsman Aparatına müraciətləri əsasında vergi orqanları ilə birlikdə problemin həlli istiqamətində müvafiq addımlar atılır: «2018-ci il martın 15-də dövlət qurumlarının və QHT-lərin, sahibkarlıq subyektlərinin və mətbuat nümayəndələrinin iştirakı ilə «İstehlakçı-sahibkar münasibətləri: qarşılıqlı hüquq və vəzifələr» mövzusunda keçirilmiş «dəyirmi masa»da biznes sektorunu narahat edən məsələlər geniş müzakirə edilib. Bu cür tədbirlər vergi ödəyiciləri arasında geniş məlumatlandırma, maarifləndirmə və təbliğat işlərinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edir. İnsan hüquqları və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı, «Gələcəyə baxış 2020: İnkişaf Konsepsiyası» və digər sənədlərdə sahibkarların, vergi ödəyicilərinin hüquqlarının qorunması sahəsində zəruri tədbirlərin görülməsi nəzərdə tutulub və həmin sənədlər çərçivəsində müvafiq işlər davam etdirilir».

### Vətəndaş müraciətləri diqqətlə araşdırılır

Vergilər Nazirliyinin Sənədlərlə iş və müraciətlərə baxılması departamentinin (Katiblik) İnzibati şikayətlərin araşdırılması şöbəsinin rəhbəri Teymur Həmidov nazirlikdə funksional idarəetmənin səmərəliliyinin təmin olunması, vətəndaş müraciətlərinə baxılmasında effektivliyin və şəffaflığın artırılması məqsədilə struktur islahatlarının aparıldığını bildirib: «Nazirlikdə yeni yaradılan departament vergi ödəyicilərindən daxil olan şikayətlərə baxılması işinin təkmilləşdirilməsi və funksional struktur vahidlərinin vəzifə öhdəliklərinin keyfiyyətli icrasının təmin edilməsi məqsədini hədəf seçib. Departamentin tərkibində yaradılmış İnzibati şikayətlərin araşdırılması idarəsinin əsas məqsədi isə vergi orqanlarında başvermə ehtimalı yüksək olan korrupsiya hallarının sayını sıfıra endirməkdir. Bu struktur dəyişikliyi ilə inzibati şikayətlərə baxan yeni bir apelyasiya institutu formalaşmışdır ki, bu da həm funksional strukturların işinin daha keyfiyyətli qurulması, həm qanunsuz vergi yoxlamalarının və operativ vergi nəzarəti tədbirlərinin sayının azaldılması, həm də nəzarət tədbirlərində risk elementlərinin minimallaşdırılması məqsədi daşıyır. Vətəndaş şikayətlərinə məhkəməyə qədər inzibati qaydada daha operativ baxılır ki, bu da inzibati icraatla şikayətlərə baxılması prosedurunun sadə olması ilə əlaqədardır».

> Şikayətlərə baxılması işinin təkmilləşdirilməsi və funksional struktur vahidlərinin vəzifə öhdəliklərinin keyfiyyətli icrasının təmin edilməsi əsas məqsədlərdəndir

Qeyd olunub ki, yerli vergi orqanlarının fəaliyyəti, qəbul etdiyi qərarların qanunvericiliyə uyğun olub-olmaması araşdırılır, nöqsanlar müəyyən edildiyi halda, qərarlara məsul olan vergi əməkdaşları barədə müvafiq intizam tənbehi tədbirlərinin görülməsi ilə bağlı rəhbərlik qarşısında məsələ qaldırılır. Bütün bu addımlar vergi yoxlamaları və nəzarət tədbirlərini həyata keçirən strukturlar ilə vergi ödəyiciləri arasındakı münasibətlərin normallaşdırılması, vergi ödəyicisi-vergi əməkdaşı-vergi orqanı rəhbəri arasındakı münasibətlərin açıq və bərabərhüquqlu səviyyəyə gətirilməsi məqsədi daşıyır: «İdarənin təsis olunduğu ötən iki ay ərzində 2.472, o cümlədən faktiki 1.797, eyni 629, təkrar 46 şikayət daxil olub. Faktiki şikayətlərin 30%-i icra edilib. Qərarlar qəbul olunmuş şikayətlər üzrə vergi ödəyiciləri tərəfindən ümumilikdə 19 milyon manatdan çox əlavə vəsait və maliyyə sanksiyası mübahisələndirilib, 90 inzibati şikayət üzrə təminetmə və qismən təminetmə qərarlarına əsasən həmin məbləğdən 71%-i azaldılıb. Qeyd edilən dövr üzrə daxil olmuş inzibati şikayətlərin araşdırılması zamanı üç halda vergi orqanı əməkdaşlarının funksional vəzifələrinin icrası zamanı nöqsana yol verdikləri müəyyən edilib, barələrində yazılı xəbərdarlıq olunmaqla, intizam məsuliyyəti məsələsinə baxılması üçün rəhbərlik qarşısında məsələ qaldırılıb».

### Vergilər Nazirliyi maarifləndirmə işinə xüsusi önəm verir

«Sosial Hüquqların Araşdırılması» İctimai Birliyinin sədri Mais Əliyev vergi orqanlarının fəaliyyətində insan amilinə xüsusi yer verildiyini, vətəndaş cəmiyyətinin üzvü və vergi ödəyicisi kimi heç vaxt Vergilər Nazirliyi ilə problemlər yaşamadıqlarını, nazirliyin QHT sektorunun problemlərinə həssas yanaşdığını diqqətə çatdırıb. Qeyd edib ki, vətəndaş cəmiyyəti institutları öz vergi öhdəliklərini yerinə yetirir, işçilərin əməkhaqqından tutulan vergilərin tam və vaxtında dövlət büdcəsinə ödənilməsini təmin edir. Vergi sistemində ən mühüm işlərdən birinin maarifləndirmənin gücləndirilməsindən ibarət olduğunu deyən natiq bu istiqamətdə müasir yanaşma vasitələrinin tətbiqini zəruri hesab edib.

Vətəndaşların sosial hüquqlarının müdafiəsindən danışan M.Əliyev ölkədə məcburi dövlət sığorta haqqının yüksək olması və hesabat formalarının təqdim edilməsində yaranan texniki çətinliklərə də toxunaraq bildirib ki, sahibkarların fiskal yükü azaldılmalı, sosial yığım sistemində ciddi islahatlar aparılmalıdır: «Hesab edirəm ki, ölkə vətəndaşlarının sosial sahədə hüquqlarının lazımi səviyyədə qorunması, cəmiyyətdə sosial müdafiəyə daha çox ehtiyac duyan insanların maarifləndirilməsi baxımından, dövlət qurumları və kütləvi informasiya vasitələri ilə yanaşı, qeyri-hökumət təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür».

### Həmkarlar ittifaqları işçilərin mənafelərinin qorunması istiqamətində səy göstərir

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Hüquq idarəsinin əməkdaşı Ruslan Bağırov qeyd edib ki, vətəndaşların sosial və iqtisadi mənafelərinin qorunması həmkarlar ittifaqlarının bilavasitə işidir: «Həmkarlar ittifaqları öz üzvlərinin və muzdlu işçilərin iqtisadi, sosial, əmək, hüquqi və mənəvi haqlarını, mənafelərini təmsil və müdafiə edir. Konfederasiya sosial ədalət prinsiplərinə əməl edilməsi, işçilərin əmək hüquqlarının qorunması, işəgötürənlərlə işçilər arasında münasibətlərin tənzimlənməsi istiqamətində mühüm işlər görməkdədir. Təşkilatın fəaliyyətinin əsas strateji məqsədi əhalinin məşğulluğunun səmərəli təşkili, insanların istismarının qarşısının alınması, işləmək istəyənlərə bərabər imkanlar yaradılması və onların maddi rifah halının qənaətedici səviyyəyə çatdırılmasından ibarətdir. Konfederasiya işçilərin hüquq və mənafelərinin pozulması halları ilə bağlı müvafiq icra və məhkəmə orqanlarına müraciət edərək minlərlə insanın əmək hüquqlarının bərpa olunmasına, habelə sosial, iqtisadi qanunvericiliyə əməl edilməməsinin və digər pozuntuların aradan qaldırılmasına nail olub».

Qeyd olunub ki, Konfederasiya Vergilər Nazirliyi ilə daim sıx əməkdaşlıq edir, maarifləndirmə işlərinə böyük önəm verir. Təşkilat tərəfindən internet və media vasitələrində vətəndaş hüquq və azadlıqlarının qorunması ilə bağlı məlumat xarakterli materiallar yerləşdirilir.

> Yerli vergi orqanlarının qərarlarının qanunvericiliyə uyğun olub-olmaması araşdırılır, nöqsanlar müəyyən edildiyi halda, qərarlara məsul olan vergi əməkdaşları barədə müvafiq intizam tənbehi tədbirlərinin görülməsi ilə bağlı rəhbərlik qarşısında məsələ qaldırılır

> Azərbaycanda sahibkarlar üçün yaradılmış münbit şərait, o cümlədən əlverişli vergi mühiti mövcud olsa da, biznes sektoru əksər hallarda bundan yalnız öz mənfəəti üçün istifadə etməyə çalışır

### Kassa çeklərinin təqdim edilməməsi hüquq pozuntusudur

«Azad İstehlakçılar» İctimai Birliyinin sədri Eyyub Hüseynov çıxışında bildirib ki, dövlətin və biznes sektorunun iqtisadi gücü istehlakçılarla bağlıdır, çünki istehlakçının əməyi, ödədiyi vergi və digər ödənişlər iqtisadiyyatın formalaşmasında mühüm rol oynayır. Ona görə də istehlakçı hüquqlarının qorunması həmişə aktual olmalı, dövlət orqanları fəaliyyətlərində bu məsələyə xüsusi diqqət ayırmalıdırlar: «Bizim araşdırmalar göstərir ki, bəzi dövlət qurumları və biznes sektorunun nümayəndələri istehlakçının mənafeyinə uyğun sistemli fəaliyyət göstərmir. Təəssüf ki, ölkədə bizneslə məşğul olan bir sıra qurumlar vətəndaşların iqtisadi və sosial hüquqlarını pozmaqdan çəkinmirlər. Azərbaycanda sahibkarlar üçün yaradılmış münbit şərait, o cümlədən əlverişli vergi mühiti mövcud olsa da, biznes sektoru əksər hallarda bundan yalnız öz mənfəəti üçün istifadə etməyə çalışır. Biz bir çox dövlət orqanları ilə faydalı, konstruktiv əməkdaşlıq edirik. Vergilər Nazirliyi isə ən yaxşı tərəfdaşlarımızdandır. Bu tərəfdaşlığın əsas istiqamətlərindən biri istehlakçı hüquqlarının qorunması ilə bağlıdır. Təşkilatımız mütəmadi olaraq Vergilər Nazirliyinə istehlakçı şikayətləri ilə bağlı müraciət edir, həmin müraciətlərlə bağlı nazirlik tərəfindən operativ cavab verilir. Bununla yanaşı, istehlakçıların hüquqlarının qorunması sahəsində bizim də nazirlikdən bəzi gözləntilərimiz var. Xüsusilə kassa çeki ilə bağlı daha çox kömək göstərilməsini istəyirik. Bizə daxil olan şikayətlərin 85 faizi kassa çeklərinin təqdim edilməməsi ilə bağlıdır. Vətəndaşlar ticarət və iaşə obyektlərində, tibb müəssisələrində onlara kassa çekləri, ödəniş qəbzlərinin verilməməsindən şikayətlənirlər. Bu sahədə dövlət və ictimai təşkilatların birgə fəaliyyəti, eyni zamanda, vətəndaş fəallığı mühüm rol oynaya bilər».

### Vergi ödəyicilərinin şikayətlərinə hüquqi çərçivədə baxılır

Vergilər Nazirliyinin Hüquq departamentinin şöbə rəhbəri Babək İbrahimov vergi ödəyicilərinin hüquqlarının qorunması sahəsində görülən işlər barədə məlumat verərək bildirib ki, sahibkarlıq subyektlərinin fəaliyyətinə qeyri-qanuni müdaxilənin qarşısının alınması məqsədilə ötən il ərzində vergi orqanlarının əməkdaşlarının qanunsuz hərəkətləri (hərəkətsizliyi) barədə daxil olmuş 407 müraciətə baxılıb, təsdiqini tapmış faktlar üzrə vətəndaşların, o cümlədən vergi ödəyicilərinin pozulmuş hüquqları bərpa edilib, müraciət edən şəxslərə mahiyyəti üzrə cavablar verilib. Vergilər Nazirliyinin Apelyasiya Şurasının icraatında 2017-ci il ərzində ümumilikdə 55 şikayət olub ki, onlardan 9-u səyyar vergi yoxlamaları, 22-si kameral vergi yoxlamaları, 13-ü operativ vergi nəzarəti tədbirləri, 11-i isə digər məsələlərlə bağlıdır: «Sahibkarların hüquqlarının müdafiəsi və fəaliyyətləri zamanı yaranan problemlərin öyrənilməsi məqsədilə ötən dövr ərzində vergi orqanları tərəfindən vergi ödəyiciləri ilə 630, bələdiyyələrlə 135 görüş keçirilib, vergi ödəyicilərinə 61.664 ünvanlı xidmət göstərilib. Nazirliyin rəsmi internet saytının «Sual-cavab» bölməsi vasitəsilə daxil olan 2644 sual cavablandırılıb. Bütün aylar üzrə vergi bəyannamələrinin təqdim edilməsi və vergilərin ödənilməsi müddətləri barədə vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə «Yaddaş» və «Vergi təqvimi» hazırlanaraq nazirliyinin rəsmi internet saytında yerləşdirilərək sosial şəbəkələrdə, ATV kanalında efirə gedən «İqtisadi zona» verilişində, digər KİV-lərdə yayımlanıb. Bundan əlavə, «Vətəndaşların müraciətləri haqqında» Qanuna edilmiş dəyişikliklər nəzərə alınmaqla «Korrupsiyaya yox deyək!» adlı buklet hazırlanaraq nazirliyin rəsmi internet saytında və sosial şəbəkələrdə yerləşdirilib. Vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən bukletlər, «Əmək müqaviləsinin bağlanması: hüquqi və inzibati prosedurlar» adlı kitabça hazırlanaraq nəşr edilib. «Əmək müqaviləsinin rəsmiləşdirilməsi» adlı flayer hazırlanaraq KİV-lərdə və sosial şəbəkələrdə yayımlanıb. İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü ilə respublikada keçirilən «İnsan Hüquqları aylığı» çərçivəsində «Vergilər» qəzetində, nazirliyin rəsmi internet saytında, sosial şəbəkələrdəki səhifələrində vergi ödəyicilərinin hüquqları ilə bağlı məlumatlar yerləşdirilib».

Qeyd olunub ki, Vergilər Nazirliyinin 2018-ci ilin ötən dövrü ərzində Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycanda Amerika Ticarət Palatası (AmCham), «Caspian European Club», «Caspian American Club», Açıq Hökumət Platformasının üzvləri, qeyri-hökumət təşkilatları və digər təşkilatlarla birgə təşkil etdiyi tədbirlərdə vergi ödəyiciləri ilə vergi orqanları arasında kommunikasiyanın təkmilləşdirilməsi mövzuları müzakirə edilib: «Vergi orqanlarına işə qəbulun şəffaflıq prinsipində həyata keçirilməsi təmin olunub, işə qəbulla bağlı şərtlərin ictimaiyyətə çatdırılması məqsədilə müvafiq tədbirlər görülüb».

### Vətəndaş-dövlət münasibətlərinin ən təkmil yolu elektron xidmətlərdir

Konstitusiya Araşdırmalar Fondunun əməkdaşı Zaur İbrahimov təmsil etdiyi təşkilatın insan hüquqlarının qorunması, xüsusilə də korrupsiya hüquqpozmaları sahəsində dövlət orqanları ilə birgə həyata keçirilən layihələrdən bəhs edib. Bildirib ki, «Korrupsiyaya qarşı mübarizə ilə bağlı Dövlət Proqramı» və bu sahədə Milli Strategiyanın həyata keçirilməsi bir sıra nəticələrin əldə olunmasına imkan yaradıb: «Lakin buna baxmayaraq, xüsusən də regionlarda vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin zəif olması vətəndaşların hüquqlarının pozulmasına səbəb olur. Ona görə də şəffaf idarəetmənin təmin olunmasında bölgələrdə dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutlarının sıx əməkdaşlığı vacibdir. Hesab edirəm ki, əhali ilə dövlət orqanları arasında sivil münasibətlərin ən təkmil yolu elektron xidmətlərin genişləndirilməsidir. E-xidmətlər şəffaf münasibətlərin qurulmasına və insanların dövlət orqanlarına etimadının gücləndirilməsinə töhfə verir, vətəndaşlara elektron xidmətlərin göstərilməsi, onların müraciət və şikayətlərinin elektron qaydada cavablandırılması insan hüquqlarının qorunmasının mühüm göstəricilərinə çevrilir. Bu sahədə Vergilər Nazirliyinin təmin etdiyi elektron xidmətlər, xüsusilə də «195-1» Çağrı Mərkəzinin fəaliyyəti təqdirəlayiqdir».

> E-xidmətlər şəffaf münasibətlərin qurulmasına, dövlət orqanlarına etimadın gücləndirilməsinə və insan hüquqlarının qorunması işinə mühüm töhfə verir

### Vergi sistemində e-xidmətlərin keyfiyyəti daha da yaxşılaşdırılacaq

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət departamentinin Xidmətin təşkili şöbəsinin rəhbəri Məmməd Quliyev vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması məqsədilə aparılan dəyişikliklərdən bəhs edib.

Bildirib ki, yeni islahatlar vergi ödəyicilərinə xidmətin keyfiyyətinin artırılması, onların hüquqlarının qorunması, mütərəqqi təcrübəyə əsaslanan yeni xidmətlərin təşkili, mövcud elektron və ünvanlı xidmətlər sisteminin inkişaf etdirilməsi məqsədini daşıyır: «Vergilər Nazirliyi təkcə vergi nəzarətini həyata keçirən orqan deyil, həm də çoxsaylı elektron xidmətləri və respublikanı əhatə edən xidmət mərkəzləri ilə vergi ödəyicilərinə, vətəndaşlara xidmət göstərən dövlət qurumudur. Hazırda xidmət kanallarının fəaliyyətinin və vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, keyfiyyətinin yaxşılaşdırılması, daha əlçatan və az vaxt itkisinə yol verən yeni xidmətlərin istifadəyə verilməsi, eləcə də yeni rəqəmsal sistemlərin yaradılması ilə əlaqədar tədbirlər davam etdirilir. Vergi orqanlarının qarşısında duran əsas prinsipial məsələlərdən biri könüllü əməletməyə keçidin təmin olunmasıdır».

... Sonda «dəyirmi masa»da müzakirə olunan məsələlər ətrafında geniş diskusiya aparılıb.

**Elbrus CƏFƏRLİ**

# Vergi sirrinə çıxışı olan vəzifəli şəxslərin dairəsi müəyyənləşdiriləcək

**Prezident İlham Əliyev sentyabrın 12-də kommersiya və vergi sirrini təşkil edən məlumatların əldə edilməsinin xüsusi rejiminin müəyyən olunması ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb. Sənədə əsasən, Vergilər Nazirliyinə kommersiya və vergi sirri təşkil edən məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısını təsdiq etmək tapşırılıb. Eyni zamanda, vergi sirlərinə çıxışı olan vəzifəli şəxslərin dairəsini müəyyən etmək səlahiyyəti Vergilər Nazirliyinə verilib.**

Qeyd edək ki, kommersiya (vergi) sirri hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar hesab olunur. Kommersiya sirrinin sahibi isə kommersiya sirrinə qanuni əsaslarla malik olan hüquqi və ya fiziki şəxslərdir.

Vergi orqanları və onların vəzifəli şəxsləri xidməti vəzifələrini yerinə yetirərkən vergi ödəyiciləri haqqında əldə etdikləri və ya onlara etibar olunan hər hansı məlumatın məxfiliyini qorumağa borcludurlar. Aşağıdakı məlumatlar istisna olmaqla, vergi orqanı və onun vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisi barədə əldə edilən istənilən məlumat kommersiya sirri və şəxsi həyata dair məlumat hesab olunur:

- vergi ödəyicisinin razılığı ilə aşkar edilən;
- vergi ödəyicisinin eyniləşdirmə nömrəsi haqqında;
- müəssisənin nizamnamə fondu (nizamnamə kapitalı) haqqında;
- vergi qanunvericiliyinin pozulması və bu pozulmalara görə məsuliyyət tədbirləri haqqında;
- vergi ödənişləri üzrə borclar;
- hüquqi şəxslərin dövlət reyestrindəki məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla).

Kommersiya sirrinin açılmasına, əsas etibarilə, ancaq bununla məhdudlaşmayan, vergi yoxlaması zamanı vəzifələrini yerinə yetirərkən vergi orqanının vəzifəli şəxsinə, cəlb edilmiş mütəxəssisə və ya ekspertə bəlli olmuş vergi ödəyicisinin kommersiya sirrinin istifadə edilməsi və ya başqa şəxsə verilməsi aiddir.

Vergi orqanına daxil olmuş və kommersiya sirrini təşkil edən məlumatların qorunmasının və əldə edilməsinin xüsusi rejimi vardır. Kommersiya sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı üzrə vəzifəli şəxslər əldə edə bilərlər. Kommersiya sirrini təşkil edən məlumatların itirilməsi və yaxud belə məlumatların açılması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Vergi Məcəlləsinin 30.1-ci maddəsində göstərilən vergi orqanları və onların vəzifəli şəxsləri vergi ödəyiciləri haqqında məlumatı ancaq aşağıdakı hallarda digər orqanlara qanunvericiliklə müəyyən edilmiş qaydada verə bilərlər:

- vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergi orqanlarının vəzifələrinin həyata keçirilməsi məqsədi ilə;
- vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə əlaqədar onların qarşısının alınması və istintaq aparılması üçün müvafiq icra hakimiyyəti orqanına;
- inzibati xətalar və ya vergi qanunvericiliyinin cinayət tərkibli pozuntuları ilə bağlı işlərə baxılma ilə əlaqədar müvafiq məhkəmələrə;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq digər dövlətlərin müvafiq dövlət hakimiyyəti orqanlarına;
- sosial müdafiə haqqında qanunların yerinə yetirilməsi üçün zəruri olan hədlərdə dövlət sosial müdafiə və tibbi sığorta fondlarına;
- gömrük qanunvericiliyinin tətbiq edilməsi məqsədləri üçün gömrük orqanlarına.
- cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə maliyyə monitorinqi orqanına.

Dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri kommersiya sirrini təşkil edən məlumatları əks etdirən sənədləri həmin sənədləri onlara təqdim etmiş vergi orqanlarına qaytarmalıdırlar. Vergi ödəyicisinə aid məlumat vergi ödəyicisinin yazılı icazəsi ilə digər şəxsə verilə bilər.

**ELBRUS**

# Pərakəndə ticarət dövriyyəsində artım müşahidə olunub

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2018-ci ilin yanvar-avqust aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,7 faiz üstələyərək 23 milyard manata bərabər olmuşdur. Ticarət dövriyyəsinin 11 milyard 532,4 milyon manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 11 milyard 434,0 milyon manatını qeyri-ərzaq məhsulları təşkil etmişdir. Satılmış məhsulların dəyəri 2017-ci ilin yanvar-avqust aylarının göstəricilərini, müvafiq olaraq, real ifadədə 2,2 faiz və 3,2 faiz üstələmişdir.

Hesabat dövründə məhsul bazarı cəvdəldəki göstəricilərlə xarakterizə olunmuşdur.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədikləri vəsaitin 45,9 faizi ərzaq məhsullarının, 4,3 faizi içkilər və tütün məmulatlarının, 18,1 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,2 faizi elektrik malları və mebellərin, 5,7 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,8 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

İstehlak məhsullarının 16,6 faizi ticarət müəssisələri, 50,7 faizi fərdi sahibkarlar tərəfindən, 32,7 faizi isə bazar və yarmarkalarda satılmışdır.

Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 292,8 manat və ya 2017-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 13,4 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 147 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 145,8 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

| Məhsul qruplarının adları | Satışdan gəlir, milyon manatla | 2017-ci ilin yanvar- avqust aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **22.966,4** | **102,7** |
| ***o cümlədən:*** | | |
| ərzaq məhsulları | 10.546,5 | 102,4 |
| içkilər və tütün məmulatları | 985,9 | 101,1 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 4.154,4 | 103,3 |
| elektrik malları və mebellər | 1.422,6 | 102,8 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 166,0 | 102,0 |
| əczaçılıq və tibbi mallar | 307,7 | 102,5 |
| avtomobil yanacağı | 1.312,2 | 101,8 |
| digər qeyri-ərzaq məhsulları | 4.071,1 | 103,6 |

**Pərakəndə ticarət zamanı alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsait**
(faizlə)




*Hazırladı:*
**Rəşad SADIQOV**

# Bakıda e-ticarətlə bağlı ilk beynəlxalq forum keçiriləcək

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və Avropa İttifaqının birgə təşkilatçılığı ilə sentyabrın 24-25-də paytaxtımızda Bakı Elektron Ticarət Forumu - «BEF-2018» keçiriləcək. Tədbirlə bağlıTəşkilat Komitəsinin iclasında Vergilər və İqtisadiyyat nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Mərkəzi Bankın, Maliyyə Bazarlarına Nəzarət Palatasının, Regional İnnovativ Texnologiyalar Akademiyasının, «Azexport» portalının, «VialonServis» və «ALbuket.az» saytının nümayəndələri iştirak ediblər.

Təşkilat Komitəsinin rəhbəri, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev bildirib ki, e-ticarət sahəsində bu miqyasda təşkil olunacaq ilk beynəlxalq tədbirdə iştirak etmək üçün 300-dən artıq yerli və beynəlxalq iştirakçı qeydiyyatdan keçib. Bakı Forumu çərçivəsində e-ticarət, onlayn ödəniş platformaları, e-ticarət həlləri üzrə ixtisaslaşan şirkət və qurumların öz məhsullarını nümayiş etdirməsi nəzərdə tutulub.

Qeyd olunub ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya»da elektron ticarətin inkişafı ilə bağlı mühüm hədəflər müəyyən edilib və həmin strategiyaya uyğun olaraq ölkədə elektron ticarətin inkişafı, bu istiqamətdə dövlət və özəl qurumlar arasında tərəfdaşlığın gücləndirilməsi məqsədilə ardıcıl işlər aparılır.

## 2018-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli

## VERGİLƏR

**2018-ci ilin avqust ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi notariuslar tərəfindən **cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar 2018-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).
- **Xüsusi notariusların 2018-ci ilin avqust ayı üzrə hesabladıqları gəlir vergisi cari ilin sentyabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

**Qeyd: 20.10.2018-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən, 2018-ci ilin 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin son müddəti 22.10.2018-ci il tarixinə keçirilmişdir.**

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Rəqəmsal ödənişlərin təşviqi məqsədilə...

«Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi»ndə «Rəqəmsal ödənişlərin genişləndirilməsi» istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası çərçivəsində növbəti tədbir kimi Mərkəzi Bankın təşəbbüsü ilə Vergilər Nazirliyi ilə birlikdə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri üçün «Rəqəmsal ödənişlərin genişləndirilməsinin təbliği və təşviqi» mövzusunda iki günlük təlim keçirilib. Məqsəd jurnalistlərin maliyyə savadlılığı səviyyəsinin yüksəldilməsi və media vasitəsilə Mərkəzi Bankın rəqəmsal ödənişlərin genişləndirilməsi istiqamətində gördüyü işlər barədə ictimaiyyəti daha dolğun məlumatlandırmaqdan ibarət olub.

Təlimdə Mərkəzi Bankın və Vergilər Nazirliyinin əməkdaşları rəqəmsal ödənişlərin təşviqi istiqamətində həyata keçirilən tədbirlər barədə təqdimatlarla çıxış ediblər. Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin Vergi qanunvericiliyi idarəsinin direktoru Əvəz Quliyev rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi, nağdsız ödənişlərin vergi qanunvericiliyinə uyğun şəkildə aparılması və stimullaşdırılması istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, «Nağdsız hesablaşmalar haqqında» Qanun iki vergi ödəyicisi arasında aparılmalı olan hesablaşmanın yalnız nağdsız qaydada həyata keçirilməsini göstərir. Bu gün Azərbaycan Respublikasında nağdsız hesablaşmaların qanunvericilik məqsədilə bir şəxsin bank hesabından digər şəxsin bank hesabına, ödəmə terminalları ilə və satıcının bank hesabına köçürülməklə üç forması mövcuddur: «2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş «Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.3-cü maddəsinə əsasən, həmin Qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 (iki yüz min) manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30.000 manatdan, digər vergi ödəyiciləri tərəfindən isə ümumi məbləği 15.000 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir. Qanunun qeyd edilən maddəsinin tələblərinin pozulmasına görə ödənişi həyata keçirən vergi ödəyicisinə aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir». Qeyd olunub ki, vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan şəxslərdən kənd təsərrüfatı məhsulları, əlvan və qara metal qırıntıları, utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatlar, utilizasiya məqsədləri üçün işlənmiş şinlər nağd qaydada satın alına bilər.

Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin Milli ödəniş sisteminin inkişafı şöbəsinin rəisi Ramil Mahmudov ölkədə elektron ticarətin inkişaf etdirilməsi, ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi, yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi, rəqəmsal bankçılığın inkişaf etdirilməsi, smart ödəniş vasitələrinin geniş tətbiqi, mövcud elektron ödəniş xidmətlərinin effektivliyinin və təhlükəziliyinin yüksəldilməsi, regionlarda maliyyə inklüzivliyinin artırılması istiqamətində Mərkəzi Bankın gördüyü işlərdən və əldə olunmuş nəticələr barədə təlim iştirakçılarına məlumat verib. Bildirib ki, rəqəmsal ödənişlərin stimullaşdırılması sahəsində Vergilər Nazirliyi ilə birlikdə bir sıra mühüm tədbirlər görülməkdədir.

Jurnalistləri maraqlandıran suallar cavablandırıldıqdan sonra Almaniyanın Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondu ilə əməkdaşlıq çərçivəsində media nümayəndələri üçün «yığım oyunu» təşkil edilib. Yarışma zamanı iştirakçılara yığım mədəniyyətinin və ailə büdcəsinin effektiv idarə olunması bacarıqları aşılanıb.

**FƏXRİYYƏ**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Avropa İttifaqı vergi sistemini modernləşdirir

Avropa İttifaqının (Aİ) iqtisadiyyat və maliyyə nazirlərinin Avstriyanın Vyana şəhərində keçirilmiş qeyri-rəsmi yığıncağının əsas mövzusu elektron ticarət sahəsində daha ədalətli vergi tənzimlənməsi məsələsinin müzakirəsi olmuşdur. Avropa Komissiyası sədrinin müavini Valdis Dombroviskis Avropanın daha modern vergi sisteminə ehtiyac duyduğunu, tədbir iştirakçılarının rəqəmsal əməliyyatların vergi sisteminə ədalətli töhfələr verdiyi barədə həmfikir olduqlarını bildirmişdir. O, mətbuat konfransında verdiyi açıqlamada görüşlər çərçivəsində Avropa ərazisində iqtisadi islahatlarla bərabər, Aİ-nin büdcəsi və Avropaya investisiyaların qoyulmasının təşviqi istiqamətində rəy və təkliflərin müzakirə olunduğunu qeyd etmişdir.

Xüsusilə «Avropaya sərmayə qoy!» şüarı ilə bağlı fikir mübadiləsinin aparıldığı haqqında məlumat verən sədr müavini investisiyaların təşviq edilməsi üçün Avropa Strateji İnvestisiyalar Fondu tərəfindən 650 milyard avro məbləğində vəsaitin sərbəst buraxıldığını demişdir.

V.Dombroviskis komissiyanın innovasiyalar, araşdırmalar və infrastruktur sahələrində qoyulacaq sərmayələrə ciddi şəkildə dəstək göstərəcəyini bildirmişdir. Avropanın modern vergi sisteminə ehtiyacı olduğunu vurğulayan V.Dombroviskis diqqəti elektron ticarətin həcminin gündən-günə artdığına yönəltmişdir: «Yığıncaqda nitq söyləyənlərin hamısı elektron əməliyyatların vergi sisteminə ədalətli töhfə verdiyi barədə həmfikirdir. Məsələnin davamlı həlli üçün həm İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (OECD), həm də G20 səviyyəsində elektron vergi sisteminin tənzimlənməsi üzərində işləyirik».

Avstriyanın maliyyə naziri Hartviq Löger də Aİ-yə üzv olan bütün ölkələrin rəqəmsal sahədə vergi tənzimləməsi barədə həmfikir olduqlarına diqqət çəkərək, bu ilin sonuna qədər elektron ticarətə yönəldilmiş ədalətli vergi tənzimlənməsi üzərində texniki işlərin aparılacağını, komissiyanın mart ayında təqdim etdiyi elektron vergi tənzimləməsi ilə əlaqədar mətnin əsas götürülməklə bütün üzv ölkələrdə müvafiq qərar çıxarılacağını bildirmişdir. Elektron vergi tənzimləməsi sayəsində əməliyyatların vergi ödəməkdən yayınmaya şərait yaradacaq yollara əl atılmasının qarşısının alınacağını ifadə edən H.Löger demişdir: «Aİ-yə üzv olan 27 ölkənin bu məsələ ilə bağlı ümumi mövqeyi var. OECD ilə keçiriləcək görüşlərlə bağlı beynəlxalq miqyasda da qəbul edilə biləcək ortaq bir qərarın həyata keçirilməsinə çalışacağıq».

H.Löger Aİ-də bu ilin sonunda elektron vergi sisteminin qəbul ediləcəyini, bu sistemin Aİ üzvü olmayan tərəfdaşlarla görüşmələr nəticəsində əldə ediləcək beynəlxalq səviyyədə məqbul elektron vergi tənzimləməsinə qədər qüvvədə qalacağını qeyd etmişdir.

# İqtisadi münaqişə səngimək bilmir

ABŞ ilə Çin arasındakı «rüsum davası» günü-gündən daha da dərinləşir. ABŞ Prezidenti Donald Tramp ÇXR üçün nəzərdə tutulan idxal rüsumunu daha da artıracağını bəyan edib. Onun sözlərinə görə, 200 milyard dollar dəyərində olan məhsullara 10% rüsum tətbiq olunacaq. Bu barədə bəyanatla çıxış edən D.Tramp onu da qeyd edib ki, Pekin Vaşinqtona güzəşt etməsə, bu rəqəm 25%-dək yüksələ bilər. ABŞ liderinin sözlərinə görə, Çinin xarici ticarət sahəsindəki siyasəti Amerika iqtisadiyyatının çiçəklənməsinə və uzunmüddətli sağlamlığına ciddi təhlükə yaradır. Bəyanatda qeyd edilir ki, 10%-lik rüsum qaydası 24 sentyabrdan qüvvəyə minəcək.

Qeyd edək ki, Trampın Çin mallarına rüsumun qaldırılması ilə bağlı qərarına cavab olaraq, qarşı tərəf adekvat cavab vermişdi.

# Sosial şəbəkələr müəllif hüquqlarına görə daha çox ödəməli olacaqlar

Avropa İttifaqı Parlamenti müəllif hüquqları ilə bağlı qanunvericiliyin dəyişdirilməsi barədə qərarı təsdiqləyəndən sonra musiqi şirkətləri, kinorejissorlar və jurnalistlər milyardlarla dollar təzminat almaq imkanı qazanmışlar. Yeni qanun layihəsinə əsasən, «Facebook» və «Google» kimi sosial şəbəkələr müəllif hüquqlarının qorunması naminə öz gəlirlərindən daha çox vəsait ayırmalı olacaqlar.

Rəqəmsal texnologiyalar zəmanəsində müəllif hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə iki il bundan əvvəl hazırlanmış layihə kinematoqrafiya təmsilçiləri ilə texnologiya nəhəngləri arasında gərgin qarşıdurma yaratmışdır.

Artıq Avropa Parlamenti müəllif hüquqları ilə bağlı daha çox ziddiyyət müşahidə edilən iki maddədə dəyişikliyin təsdiqi barədə qərar çıxarmışdır. Əks tərəfin «rabitə vergisi» adlandırdığı 11-ci maddə «Google» və «Facebook» kimi sosial şəbəkələri müəlliflərə xəbər səciyyəli fraqmentlərin və ya hiper istinadların verilməsi üçün daha çox vəsait ödəməyə məcbur edəcək. İndiyə qədər Avropanın aparıcı informasiya agentlikləri sosial şəbəkələri onların hazırladıqları materialları oğurlamaqda və bununla da reklam gəlirlərinə ortaq olmaqda ittiham edirdilər.

Qanunun 13-cü maddəsi «YouTube» kimi platformaların üzərinə musiqi klipləri üçün lisenziya almaq öhdəliyi qoyur. Bu, onlara royalti ödənişi ilə bağlı daha ədalətli razılaşma əldə etməyə imkan yaradacaq. Uzun illər idi musiqi sənayesi tərəfindən «YouTube» ittiham edilirdi ki, bu platforma musiqili videokliplərlə bağlı qanunvericiliyin boşluqlarından sui-istifadə edərək müəlliflərə minimum səviyyədə vəsait ödəyir. Musiqi sektorunun təmsilçiləri aldıqları haqq ilə real gəlirlər arasında ziddiyyət olduğundan şikayətlənirdilər.

Yeni islahatın əleyhdarları isə belə hesab edirlər ki, bu cür addımın atılması «Facebook» üzərindən fotoların və musiqi parçalarının mübadiləsinə əngəl yaradacaq. «Vikipediya» Avropa Parlamentinin planına etiraz əlaməti olaraq, artıq bir neçə ölkədə öz səhifələrini bağlamışdır. «Vikipediya»nın bəyanatında bildirilmişdir ki, Avropa Parlamentinin atdığı addımlar istifadəçilərin yaratdıqları sərbəst ensiklopediyanı bağlamağa məcbur edir.

Qanun layihəsi növbəti mərhələdə üçtərəfli müzakirə üçün Avropa Komissiyası və Avropa İttifaqı Şurasına təqdim olunacaq.

# ASM Yunanıstana xəbərdarlıq edib



Avropa Sabitlik Mexanizminin rəhbəri Klaus Reqlinq xilasetmə paketi proqramından çıxan Yunanıstandan öhdəsinə götürdüyü proqramlara və qənaət tədbirlərinə əməl etməsini gözlədiklərini bəyan etmişdir.

K.Reqlinq açıqlamasında xilasetmə paketi proqramı başa çatandan sonra Yunanıstan iqtisadiyyatında ehtimal edilən perspektivləri qiymətləndirmişdir. Yunanıstanın bu proqramı başa çatdırmasının çox faydalı olduğunu bildirərək proqramın digər ölkələrdəki kimi «uğur hekayəsi» ola bilməsi üçün islahatlara əsaslanan iqtisadi və vergi siyasətini davam etdirməsinin zəruriliyi vurğulanmışdır: «Proqramdan çıxmaq üçün razılaşmanın bir hissəsi olan 15 milyard avroluq kreditin və orta müddətli borcların yumşaldılması qərarları Yunanıstan hökumətinin Avropadan olan tərəfdaşları qarşısında götürdüyü həm maliyyə, həm də islahat öhdəlikləri ilə əlaqəlidir. Sözün açığı, Yunanıstanın öz öhdəliklərinə sadiq qalmasını gözləyirik».

Yunanıstan Prezidenti Aleksis Çiprasın vergi dərəcələrinin endirilməsini və minimum əməkhaqqının artırılmasını əhatə edən vədlərini dəyərləndirən K.Reqlinq: «Yunanıstan artıq xilasetmə proqramında deyildir. Ona görə də Prezidentin verdiyi vəd hökumətin qərarından asılıdır. Bununla belə, bütün əlaqədar faktorlar nəzərə alınmalı və uyğun bir məsləhətləşmə prosesi izlənilməlidir», - deyə qeyd etmişdir. O, əməkhaqqının xilasetmə paketi dövründə istehlaka və məşğulluğa müsbət təsir göstərdiyini qeyd edərək, maaş artımının iqtisadi artımla birlikdə həyata keçirilməsinin zəruriliyini vurğulamışdır.

A.Çiprasın Yunanıstan hökumətinin xüsusi olaraq büdcə intizamına sadiq qalacağı yönündəki açıqlamalarının müsbət olduğunu və vergi dərəcələrinin azaldılmasının iqtisadi artım üçün əhəmiyyət daşıdığını bildirən Reqlinq: «Bunları qəbul edirik. Ancaq vergi yükünü azaltmaq üçün maliyyə imkanları yaranmalıdır. Bunun üçün kreditorlar və razılaşmalar nəzərə alınmalıdır», - demişdir.

Yunanıstanın xilasetmə paketinin qüvvədə olduğu müddət ərzində, başda ASM olmaqla, kreditorların təmsilçiləri xilasetmə paketi başa çatandan sonra ölkənin iqtisadiyyatı ilə əlaqədar «qabaqcıl nəzarət tədbirləri» barədə müzakirələr aparmaq üçün Afinaya gəlmişdi. Həmin toplantıda əldə edilən razılaşmaya əsasən, milli gəlirinin az qala iki qatı həcmində borcu olan (borcun əksər hissəsi kreditorlara qaytarılmalıdır) Yunanıstanda kreditorlar xilasetmə paketi başa çatandan sonra da öz nəzarət tədbirlərini davam etdirəcəklər.

Qeyd edək ki, Yunanıstan bu il avqustun 20-də rəsmi şəkildə xilasetmə paketinin əhatə dairəsindən çıxmış sonuncu ölkə olmuşdur. Dövlət başçısı A.Çipras bir neçə gün öncə verdiyi açıqlamada bir sıra vergi növlərinin dərəcələrinin mərhələli şəkildə azaldılacağını bildirmişdi.

# Özbəkistanda daha bir sərbəst iqtisadi zona yaradılır

Prezident Şavkat Mirziyoyev ölkənin Fərqanə vadisindəki Namanqan vilayətində «Namanqan» sərbəst iqtisadi zonasının yaradılmasına dair sərəncam imzalamışdır. Sərəncama görə, həmin zonada əkinçilik və meyvə məhsullarının emalı və ixracı, tekstil və dəri, avtomobil, elektrotexnika və inşaat məhsulları istehsal etmək məqsədilə aparılacaq əməliyyatlar 10 ilə qədər vergi və gömrükdən azad ediləcək. Sərbəst iqtisadi zonada qurulacaq müəssisələr idxal edəcəkləri xammal, ləvazimatlar və köməkçi hissələr üçün də gömrük vergisi ödəməyəcəklər.

Sərəncamda qeyd edilmişdir ki, 3 milyon ABŞ dollarına qədər sərmayə qoyacaq şirkətlər 3 il, beş milyon dollara qədər sərmayə qoyan şirkətlər 5 il, 10 milyon dollardan artıq sərmayə qoyacaq şirkətlər isə 10 il ərzində vergi və gömrük ödəmələrindən azad ediləcək. Hazırda ölkənin Nəvai, Anqren, Buxara, Səmərqənd, Xarəzm, Daşkənd, Sırdərya və Fərqanə vilayətlərində xüsusi vergi və gömrük rejiminin tətbiq edildiyi 15 sərbəst iqtisadi zona fəaliyyət göstərir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Kara dənizində ada; 2.Xorla və tək oxunan, adətən təntənəli mahiyyət daşıyan böyük musiqi əsəri; 3.ABŞ-ın Nebraska ştatında şəhər; 4.Yakutiya və Xabarovsk diyarında çay; 5.Drapın, məxmərin ən yaxşı növlərinin adı; 6.SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, SSRİ-nin və Azərbaycanın xalq rəssamının adı; 9.Hindistanda şəhər; 13.RF-nin Kemerovo vilayətində çay; 15.Müsəlmanların müqəddəs kitabı Quranın maidə surəsinin 55-ci ayəsinə verilən ad; 16.Nəm mala üzərində sulu boya ilə çəkilmiş şəkil, rəsm, naxış; 17.Əsasən Novruz bayramı günlərində uşaq və gənclər arasında oynanılan qədim Azərbaycan oyunlarından biri; 18.Azot turşusunun duzu; 20.Ölkəmizdə qız adı və yaz fəsli; 21.Seneqalda yaşayan xalq. **Soldan sağa:** 1.Doktorluq dissertasiyası hazırlamaq üçün bir elmi idarəyə təhkim olunmuş alim; 5.Bolqarıstanın şimalında çay; 7.Qiymətli kağızlar bazarında satın alınmış səhmlərin dəyərinin ödənişinin növbəti hesablaşma dövrünə qədər təxirə salınması imkanı; 8.Türk mifologiyasında korlar tanrısı *(xan)*; 10.Yaponiyanın Tokiodan sonra ikinci böyük şəhəri; 11.İranda duzlu göl; 12.XIX əsr görkəmli Azərbaycan şairi; 14.Yağda qovrulmuş un və doşabdan, bəzən də baldan, şəkərdən bişirilən Şərq şirniyyatı; 19.Uzaq Şərqdə çay; 21.Rəqəmsal kamera, kameralı mobil telefon və ya planşet ilə çəkilən avto-portret növü; 22.Sahibinə hər hansı müəssisənin aktivlərində müəyyən bir paya sahiblik və payına uyğun olaraq müəssisənin gəlirinin bir hissəsini divident şəklində əldə etmək hüququ verən qiymətli kağız; 23.Şeirlərini Azərbaycan və fars dillərində yazmış böyük Azərbaycan şairi; 24.Gündə bir cüt öküzlə şumlanan sahə; 25.Müəyyən bir sahədə üstünlük təşkil edən tapşırıq.



*Rəqəmsal kamera, kameralı mobil telefon və ya planşet ilə çəkilən avto-portret növü*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sakura; 2.İsmayıl *(Əfəndiyev)*; 3.Spred; 4.Neolit; 5.Qacar; 6.Qurban *(Qurbanov)*; 9.Epir; 13.Emin *(Sabitoğlu)*; 15.Natəvan; 16.Tambur; 17.Mağara; 18.Boyler; 20.Ağçay; 21.Penni. **Soldan sağa:** 1.Smitsonit; 5.Qoq *(Vinsent Van Qoq)*; 7.Kamerton; 8.Acar; 10.Riyad; 11.İsparta; 12.Alkey; 14.Tranş; 19.Amaliya *(Pənahova)*; 21.Patio; 22.Biça; 23.Karnaval; 24.Rey; 25.Stasionar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Sabah paytaxtımızda cüdo üzrə dünya çempionatına start verilir

Sentyabrın 20-də Bakıdakı Milli Gimnastika Arenasında start götürəcək cüdo üzrə dünya çempionatının təqvimi dəqiqləşib. Nüfuzlu yarışın püşkü bu gün «Hilton Baku» mehmanxanasında atılacaq, açılış mərasimi isə sentyabrın 21-nə təyin olunub. Məşhur italiyalı müğənni Al Banonun qatılacağı və xüsusi açılış proqramı ilə müşayiət olunacaq tədbir saat 14:00-da başlanacaq. Bütün yarış günlərində fərdi görüşlər saat 10:00-da, final görüşləri isə saat 16:00-da start götürəcək. Yalnız son günə - sentyabrın 27-nə təsadüf edəcək qarışıq komanda yarışlarının startı saat 9:00-a təyin olunub.

WORLD JUDO CHAMPIONSHIPS BAKU 2018

### Yarışların təqvimi

| |
|---|
| **19 sentyabr** |
| *14:00. Fərdi və komanda yarışlarının püşkatması* |
| **20 sentyabr** |
| *Qadınlar 48 kq / Kişilər 60 kq* |
| 10:00. İlkin görüşlər |
| 16:00. Final görüşləri |
| **21 sentyabr** |
| *Qadınlar 52 kq / Kişilər 66 kq* |
| 10:00. İlkin görüşlər |
| 14:00. Açılış mərasimi |
| 16:00. Final görüşləri |
| **22 sentyabr** |
| *Qadınlar 57 kq / Kişilər 73 kq* |
| 10:00. İlkin görüşlər |
| 16:00. Final görüşləri |
| **23 sentyabr** |
| *Qadınlar 63 kq / Kişilər 81 kq* |
| 10:00. İlkin görüşlər |
| 16:00. Final görüşləri |
| **24 sentyabr** |
| *Qadınlar 70 kq / Kişilər 90 kq* |
| 10:00. İlkin görüşlər |
| 16:00. Final görüşləri |
| **25 sentyabr** |
| *Qadınlar 78 kq / Kişilər 100 kq* |
| 10:00. İlkin görüşlər |
| 16:00. Final görüşləri |
| **26 sentyabr** |
| *Qadınlar 78 kq-dan yuxarı / Kişilər 100 kq-dan yuxarı* |
| 10:00. İlkin görüşlər |
| 16:00. Final görüşləri |
| **27 sentyabr** |
| 09:00. Qarışıq komanda yarışları |

# Marselo da cəzalandırıldı



İspaniyanın «Real» Madrid futbol komandasının braziliyalı oyunçusu Marselo vergi qaçaqlığı ittihamı ilə bağlı razılaşmanı qəbul etmişdir. Bu addımı atmaqla o, öz cəzasının xeyli yüngülləşdirilməsinə nail olmuşdur. Razılaşma nəticəsində ulduz futbolçu dörd ay həbs və 750 min avro pul cəriməsi ilə cəzalandırılmışdır. İspaniya qanunvericiliyinə görə, futbolçu həbsxanada yatmayacaq - iki ilə qədər həbs cəzası ilk dəfə şərti qaydada verilir.
Prokurorun iddiasında Marselonun 2011-2013-cü illərdə imic hüquqlarından gələn gəlirlərini vergidən gizlətdiyi irəli sürülmüşdü. Xatırladaq ki, bu yaxınlarda İspaniya məhkəməsi tərəfindən dünyanın ən böyük futbol mütəxəssislərindən biri olan Joze Maurinyoya da eyni qaydada cəza verilmişdi.

# Qadın voleybolçularımızın dünya çempionatında heyəti açıqlandı

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin sentyabrın 29-dan oktyabrın 20-dək Yaponiyada təşkil olunacaq dünya çempionatı üçün heyəti açıqlanıb. Azərbaycan Voleybol Federasiyasından bildiriblər ki, mundialda baş məşqçi Faiq Qarayev 14 oyunçunun xidmətindən yararlanacaq.

Millimizin heyətində Yana Əzimova, Anastasiya Qurbanova, Odina Əliyeva, Ayşən Əbdüləzimova, Alena Həsənova, Yelizaveta Səmədova, Natalya Məmmədova, Yana Kulan, Kristina Yaqubova, Aynur İmanova, Yuliya Kərimova, Polina Rəhimova, Şəfaqət Alışanova və Bəyaz Əliyeva yer alıblar.

Qeyd edək ki, Azərbaycan millisi dünya çempionatında Rusiya, ABŞ, Tailand, Trinidad və Tobaqo və Koreya Respublikası yığmaları ilə bir qrupda mübarizə aparacaq.




# «Sportinq» - «Qarabağ» matçını fransız hakimlər idarə edəcəklər

Azərbaycanın avrokuboklarda yeganə təmsilçisi olan Ağdamın «Qarabağ» klubunun UEFA Avropa Liqasının qrup mərhələsində Portuqaliyanın «Sportinq» klubu ilə keçirəcəyi ilk oyunun hakimləri müəyyənləşib. Matçı Fransadan olan hakimlər briqadası idarə edəcək. Görüşün baş hakimi Fransua Leteksiye Siril Münyö və Mehdi Rahmuni kömək edəcəklər. Dördüncü hakim funksiyasını Bertran Juanno yerinə yetirəcək. Əlavə köməkçi hakimlər Frank Şnayder və Kərim Abed olacaqlar. Matçın hakim-inspektoru Bosniya və Herseqovinadan olan Elmir Pilav, UEFA nümayəndəsi isə çexiyalı Patrik Filipekdir.

Qeyd edək ki, sentyabrın 20-də Lissabondakı «Joze Alvalade» stadionunda keçiriləcək «Sportinq» - «Qarabağ» matçı Bakı vaxtilə saat 23:00-da başlayacaq.

## mozaika

robototexnika

# Mərcan dənizində robot «keşik çəkəcək»



Avstraliyanın Queensland Texnologiya Universitetinin tədqiqatçıları dünyanın nadir dəniz qoruğu olan Böyük Sədd Rifini mühafizə etmək məqsədilə yeni sualtı cihaz - robot hazırlayıblar. Uzaqdan idarə edilən, «Rangerbot» adlanan cihaz mərcan poliplərini yeyən dəniz ulduzlarını məhv edəcək. Bir dalğıcdan təxminən üç dəfə daha artıq müddətdə su altında qala bilən cihaz suyun keyfiyyətini operativ müəyyənləşdirmək, ərazidəki suyun çirklənməsi ilə bağlı məlumat toplamaq qabiliyyətinə də malikdir. Təxminən 15 kiloqram ağırlığında olan «Rangerbot»un uzunluğu 75 santimetrdir.

Xatırladaq ki, Mərcan dənizində 344 min 400 kvadratkilometr sahəni əhatə edən Böyük Sədd Rifinin ərazisində 5 mindən çox canlı, o cümlədən 500-dən artıq balıq növü yaşayır. Son illər qlobal istiləşmə nəticəsində okeanlarda turşuluğun artması riflərin məhvinə gətirib çıxarır. Bundan başqa, təsərrüfatlarda istifadə olunan kimyəvi maddələrin sulara qarışması nəticəsində çoxalan dəniz ulduzları mərcan poliplərini yeyərək riflərə zərər verir. İldə 1,6 milyon ziyarətçi ilə Avstraliya iqtisadiyyatına təxminən 5 milyard ABŞ dolları həcmində gəlir gətirən Böyük Sədd Rifi 1981-ci ildən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması siyahısına daxil edilib.

texnologiya

# Suda işləyən oyun noutbuku

«Raytheon» şirkəti «ChinaJoy» (China Digital Entertainment Expo & Conference) konfransında konseptual «Uncia» noutbukunu nümayiş etdirib. Qurğu istehsalçı tərəfindən «IP68» standartı üzrə su və tozdan mühafizəli dünyanın ilk oyun noutbuku kimi qələmə verilir.

Adətən, belə mühafizəyə sənaye və ya hərbi modellərin malik olmasına baxmayaraq, «Raytheon Uncia» modeli adi istifadəçi noutbuku kimi görünür. Lakin modelin ərsəyə gəlməsinə hərbi sənaye də öz töhfəsini verib. Məsələ ondadır ki, «Raytheon» ABŞ-ın iri hərbi sənaye şirkəti, silah və hərbi texnika tədarükçüsüdür.

Nümayiş zamanı su ilə doldurulmuş şəffaf kvadrat şüşənin daxilinə yerləşdirilən noutbuk işləməkdə davam edib. 13 düym diaqonallı «Raytheon Uncia» noutbukunun çəkisi 1,1 kiloqram, qalınlığı 12,7 millimetr təşkil edir.

Səkkizinci nəsil «Intel Core i7-8550U» prosessoru ilə təchiz edilən yeni qurğunun qapağı 360 dərəcə açılır. Noutbukun buraxılış müddəti və qiyməti barədə məlumat verilmir.

dünyada ilk

Sentyabrın 20-dən 23-dək İstanbulda Dünya dron çempionatı təşkil olunacaq. İstanbulun yeni hava limanında keçiriləcək tədbirdə dünyanın ən sürətli dronları yarışacaq. Türkiyənin ilk aviasiya, kosmos və texnika festivalı sayılan «Teknofest İstanbul» çərçivəsində təşkil olunacaq yarışda 25-dən çox ölkəni 64 idmançı təmsil edəcək. Dünyada ilk dəfə ən çox ölkənin təmsil olunacağı bu dron yarışında qurğuların saatda 250 kilometr sürətlə hərəkət edəcəyi gözlənilir.



mədəniyyət

# Sevərək yaşadı, sevilərək öldü...




18 sentyabr - Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin dünyaya göz açdığı gün ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Bu gün həm də Üzeyir Hacıbəyliyə həsr olunmuş Beynəlxalq Musiqi Festivalının açılışı ilə əlamətdardır.

Üzeyir Hacıbəyli bəstəkar, alim, yazıçı, publisist, ictimai və siyasi xadim kimi çoxşaxəli fəaliyyəti ilə yanaşı, Şərqdə ilk operanın banisi kimi tanınan sənətkardır. Məhz onun fədakar əməyi sayəsində Azərbaycan milli opera sənətinin tarixi 110 il bundan öncə tamaşaya qoyulan «Leyli və Məcnun» operası ilə başlandı. Operanın ilk dirijoru Əbdürrəhim bəy Haqverdiyev, rejissoru Hüseyn Ərəblinski olub. Məcnun rolunda ölməz sənətkar Hüseynqulu Sarabski, Leyli rolunda isə aşpaz şagirdi Əbdürrəhim Fərəcov çıxış ediblər. İlk tamaşa 1908-ci il yanvarın 25-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında oynanılıb. İlk operanın uğurlarından ruhlanan Üzeyir bəy bir-birinin ardınca «Şeyx Sənan» (1909), «Rüstəm və Söhrab» (1910), «Şah Abbas və Xurşidbanu», «Əsli və Kərəm» (1912), «Harun və Leyla» (1915) kimi milli operalar yazıb. Üzeyir Hacıbəyli yaradıcılığının zirvəsi «Koroğlu» operasıdır. Bu qiymətli əsər keçmiş sovet respublikalarının opera və balet teatrlarında dəfələrlə göstərilib. Şərqdə ilk operetta janrının yaranması da Üzeyir Hacıbəylinin adı ilə bağlıdır.

Dahi bəstəkarın ilk musiqili komediyası üç pərdədən ibarət «Ər və arvad»dır. Bu əsər Azərbaycanda musiqili komediyanın ilk nümunəsidir. Əsərin ilk tamaşası 1910-cu ildə olub. Rollarda H.Sarabski (Mərcan bəy), Ə.Ağdamski (Minnət xanım) və başqaları çıxış ediblər. Müəllifin ikinci musiqili komediyası «O olmasın, bu olsun»dur. Əsərin ilk tamaşası 1911-ci ilin aprelində Bakıda olub. Sonralar musiqili komediya müxtəlif dillərə tərcümə olunaraq səhnələşdirilib. Ölməz sənətkarın üçüncü və sonuncu musiqili komediyası «Arşın mal alan»dır. Bu operetta 70-ə yaxın xarici dilə tərcümə edilib, 100-dən çox teatrın səhnəsində oynanılıb. «Arşın mal alan» beş dəfə ekranlaşdırılıb, dəfələrlə qrammofon valına yazılıb. Bu musiqili komediya əsasında ilk bədii film 1916-cı ildə çəkilib. Bu, səssiz film olub.

Üzeyir Hacıbəylinin ədəbi və publisistik irsi də çox zəngin və qiymətlidir. Maraqlıdır ki, həm Azərbaycan Xalq Cümhuriyyətinin, həm də sovet Azərbaycanının himnləri dahi sənətkara məxsus olub. Müstəqilliyimizi qazandıqdan sonra xalqımıza azadlıq şərafəti çatdıran ilk himni biz bu gün yenə də məhəbbətlə səsləndiririk.

Üzeyir bəy millətimizin yaddaşında əbədi yaşayan insanlardandır. Səməd Vurğunun sözləri ilə desək:

*Ölüm sevinməsin qoy,*
*ömrünü vermir bada*
*El qədrini canından*
*daha əziz bilənlər.*

*Şirin bir xatirətək*
*qalacaqdır dünyada*
*Sevərək yaşayanlar,*
*sevilərək ölənlər...*

ekologiya

# Təhlükəsizliyi təmin etmək məqsədilə...

Çin alimləri dəniz suyunda qısa vaxtda parçalana bilən plastika növü hazırlayıblar. Yeni texnologiya okeanın plastik tullantılarla çirklənməsi ilə bağlı yaranan problemləri aradan qaldırmağa imkan verəcək. Çin Elmlər Akademiyası Fizika və Kimya İnstitutunun alimləri tərəfindən müvəffəqiyyətlə sintezləşdirilmiş qabaqcıl poliefirlər suda həllolma və mikroorqanizmlərin parçalanma qabiliyyətini özündə birləşdirir. Bildirilib ki, dənizə düşən bu plastika növü yüz gün ərzində tamamilə parçalanır və son nəticədə ekoloji təhlükəsizliyə problem yaradan makromolekulyar maddələrə çevrilmir. Mütəxəssislərin fikrincə, bu material gələcəkdə bir çox sahələrdə adi plastikanı əvəz edə bilər.

**Müdriklər deyib ki...**

***«Dost uğrunda ölmək asandır, lakin uğrunda ölünəcək dost tapmaq çətindir».***

***Servantes***

